www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 mart 2017-ci il Cümə № 59 (6673) Qiymәti 60 qəpik

**Xəbər**

## Prezident geniş əfv sərəncamı imzaladı-423 məhkum azadlıqda!

yazısı səh.4-də

**Gündəm**

### Bakı nəhəng foruma ev sahibliyi etdi-mühüm mesajlar verildi




**Prezident İlham Əliyev:** "Ermənistana qarşı sanksiyalar tətbiq olunmalıdır, məhz onda bu, ədalətli olacaq, vahid standart olacaq"

yazısı səh.5-də

### 5 nəfərin ölümü ilə bağlı daha bir iddia-qida zəhərlənməsi...

yazısı səh.3-də

### Qarabağ danışıqları dalandan çıxacaqmı?

yazısı səh.11-də

### Tələbələri ölümə aparan... yataqxana problemi

yazısı səh.12-də

### Türklərin partiyası Hollandiya parlamentində mandat qazandı

yazısı səh.10-da

### Xalq artistinin qardaşının obyekti sökülür

yazısı səh.13-də

### Türkiyəli biznesmenin Bakıda yumurta davası siyasiləşdi

yazısı səh.12-də

*Rus ekspert:*

### "Lukaşenko devriləcək"

yazısı səh.10-da

### BŞİH-in bayram çadırlarında partlayıcı maddələr satılır-təhlükə

yazısı səh.13-də

### Xankəndi qumarbazını Kreml üçün vazkeçilməz edən səbəb

yazısı səh.9-da

### Əbülfəz Elçibəyin adının əbədiləşdirilməsi məsələsi gündəmə gətirildi

yazısı səh.7-də

## Rusiya baş diplomatından ilginc anons

# KREML ERMƏNİSTANA TÜRKİYƏDƏN QAPI AÇMAQ İSTƏYİR - ANKARA VƏ BAKIYA AVRASİYA TƏLƏSİ

Gürcüstan yolunun qapalı qalması işğalçı ölkənin blokadasını ilbəil ağırlaşdırır; Rusiya öz satellitinə çıxış yolu axtarışında; Türkiyə Avrasiya İqtisadi Birliyinə qoşularsa, təcavüzkarın blokadası yarıla bilər, ancaq...; Sərkisyanın Moskva səfərinin daha bir pərdəarxası...




yazısı səh.9-da

## Baş nazir bu gün parlamentdə hesabat verəcək-22 illik dönəm başa çatırmı?

İddialara görə, hesabat qəbul olunduqdan az sonra Artur Rəsi-zadə təltif edilməklə fəxri təqaüdə yola salınacaq

yazısı səh.6-da



Mövlud Mövlud

### Son yazısını qanla yazdı: gənc yazar özünü niyə öldürdü?

yazısı səh.7-də



Mikayıl Rəhimov

### İrəvanın dəvətinə MSK-dan reaksiya

yazısı səh.6-da



Əli Əliyev

### Müxalifət "yaz hücumu" taktikasından imtina edib-səbəb

yazısı səh.8-də

YENİ MÜSAVAT
N 59 (6673) 17 mart 2017



## Ramil Usubovdan yeni təyinat

**Daxili işlər orqanlarında yeni kadr təyinatı olub. "Report"un xəbərinə görə, daxili işlər naziri Ramil Usubovun əmri ilə Qaradağ Rayon Polis İdarəsi (RPİ) 38-ci Polis Bölməsinin (PB) rəisi, polis mayoru Turavi Paşayev vəzifəsindən azad edilib. O, Binəqədi RPİ-nin 7-ci PB-nə rəis vəzifəsinə təyin edilib.**

Qeyd edək ki, T.Paşayev Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin rəisi, general-mayor Şahmar Paşayevin oğludur. Ş.Paşayev polisdə tanınmış simalardan olub. O, Naxçıvan Şəhər Polis İdarəsinin rəis müavini, rəisi, Xətai rayonunun 34, 37 bölmələrinin rəisi, Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, Yasamal, Şirvan və Salyan rayonlarının polis rəisi vəzifələrində çalışıb.



## Beynəlxalq Bankın özəlləşdirilməsi üçün xarici tərəfdaş axtarılır

**"Azərbaycan Beynəlxalq Bankının (ABB) özəlləşdirilməsi üçün xarici tərəfdaş axtarırıq". "Report" xəbər verir ki, bunu Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) şöbə müdiri Rüstəm Tahirov deyib.**

R.Tahirovun sözlərinə görə, Palata və Maliyyə Nazirliyi ABB-yə nəzarətlə bağlı sıx əməkdaşlıq edir.

"Fitch" reytinq agentliyinin maliyyə institutları üzrə direktoru Dmitri Vasilyev isə dövlətin ABB-yə dəstəyinin davam edəcəyini proqnozlaşdırdığını deyib.

## BVF-nin ofisində terror aktı

**Beynəlxalq Valyuta Fondunun Paris ofisində partlayış baş verib. Virtualaz.org "Frans-Press"ə istinadən xəbər verir ki, bağlamalardan birinin partlaması nəticəsində bir nəfər xəsarət alıb. Fransa prezidenti Fransua Olland Beynəlxalq Valyuta Fondunun Paris ofisində baş vermiş partlayışı terror aktı adlandırıb.**

## Tələbələrin təqaüdləri niyə gecikir?

**Son günlər bəzi kütləvi informasiya vasitələrində ilin əvvəlindən ali təhsil müəssisələri tələbələrinin təqaüdlərinin gecikdirilməsi ilə bağlı müxtəlif xəbərlər dərc olunur və buna "Maliyyə Nazirliyinin hesaba pul köçürməməsi" səbəb kimi göstərilir.**

Maliyyə Nazirliyinin ictimaiyyətlə əlaqələr sektorunun müdiri Mais Piriyev APA-ya bildirib ki, ali təhsil müəssisələri tələbələrinin təqaüdlərinin geçikməsində hər hansı vəsait çatışmazlığından söhbət getmir: "Bildiririk ki, dövlət sifarişi ilə ali təhsil və digər müəssisələrdə kadr hazırlığı xərclərinin, o cümlədən təqaüd xərclərinin maliyyələşdirilməsi ilə bağlı Təhsil Nazirliyi tərəfindən hazırlanmış müvafiq normativ hüquqi aktın layihəsi Maliyyə Nazirliyinə təqdim olunub. Həmin layihə təhlil edilərək əsasən məqbul hesab olunub və aidiyyəti üzrə Təhsil Nazirliyinə göndərilib. Sözügedən layihə Təhsil Nazirliyi tərəfindən hökumətə təqdim edildikdən və prosedura uyğun olaraq müvafiq sərəncam Nazirlər Kabineti tərəfindən təsdiq olunduqdan sonra Maliyyə Nazirliyi təhsil və təqaüd xərclərinin maliyyələşdirilməsini tam təmin edəcək".

"Qaya Mətbuat Yayımı" MMC!
- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Hacı İlqar İbrahimoğlu saxlanıldı və azad olundu

**Martın 16-da Şirvan Apelyasiya Məhkəməsində Azərbaycan Ruhanilər Məclisinin (ARM) üzvü, maide.az saytının baş redaktoru Sərdar Hacıhəsənlinin məhkəməsində iştirak etmək üçün bu şəhərə getmiş Dini Etiqad və Vicdan Azadlıqlarının Müdafiə Mərkəzinin (DEVAMM) sədri, İçərişəhər "Cümə" məscdinin imam-camaatı Hacı İlqar İbrahimoğlu və daha 3 nəfər Şirvanda saxlanılaraq polis bölməsinə aparılıblar.**



Səhər məhkəmə prosesindən əvvəl Hacı İlqar İbrahimoğlu, Elimxan, Vasif və Eldəniz adlı digər 3 dindar proses başa çatandan bir neçə saat sonra sərbəst buraxılıblar. Bundan sonra Hacı İlqar İbrahimoğlu sosial şəbəkə üzərindən canlı yayına çıxıb və baş verənləri anladıb.

O, Sərdar Hacıhəsənlinin Cinayət Məcəlləsinin 168-1.3 (İslam dininə aid ayin və mərasimlərin xaricdə dini təhsil almış Azərbaycan Respublikasının vətəndaşı tərəfindən aparılması - təkrar edildikdə) maddəsi ilə ittiham edilərək həbs olunmasını pisləyib, deyib ki, bu, ölkəmiz adına utanc gətirən bir addımdır. Məhkəməyə qatılmazdan əvvəl prosesin qapalı olacağını bildiklərini, sadəcə, mənəvi borc olaraq məhkəmənin qarşısına getdiyini bildirib. Qeyd edib ki, səhər 11-in yarısında Şirvana çatıblar. Məlum olub ki, məhkəməyə gedən yollarda bufer qoyulub. Ona görə də maşını saxlayıb məhkəməyə getmək yollarını arayıblar. Həmin vaxt polislər onları rayon polis idarəsinə dəvət ediblər. Onlar polis idarəsinə gediblər və 5 saat burada saxlanıblar. DEVAMM sədri deyib ki, polisdə onlarla mədəni davranıblar, davranışlardan anlayıblar ki, onlarlıq bir iş yoxdur. Onlara namaz qılmaq üçün şərait yaradılıb. Onlardan Şirvana niyə gəldikləri haqda izahat istənilib və sərbəst buraxılıblar.

Saxlanılmasının beynəlxalq təşkilatların, səfirliklərin, mətbuat nümayəndələrinin diqqətində olduğunu qeyd edən Hacı İlqar İbrahimoğlu bəyan edib ki, namaz məhbusunun məhkəməsində iştirakları təbiidir. O, Şirvanı tərk etdiklərini, həbsdə olan Sərdar Hacıhəsənlinin tezliklə azad ediləcəyinə ümid etdiyini, Qafqaz Müsəlmanları İdarəsinin bu məsələni diqqətdə saxlamalı olduğunu söyləyib.

❑ E.MƏMMƏDƏLİYEV



## KİV DF jurnalist müsabiqəsinin qaliblərini mükafatlandırdı



**Martın 16-da "Altun saray" restoranında Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) Novruz bayramı münasibətilə elan etdiyi fərdi jurnalist yazıları müsabiqəsində birinci yerə layiq görülmüş media nümayəndələrinin mükafatlandırılmasına və Novruz bayramına həsr olunmuş tədbir keçirilib.**

Tədbirdə dövlət və hökumət təmsilçiləri, Milli Məclisin deputatları, ölkədə fəaliyyət göstərən diplomatik korpusların nümayəndələri, aparıcı yerli və xarici kütləvi informasiya vasitələrinin rəhbərləri və müsabiqədə qalib olmuş jurnalistlər iştirak ediblər.

Fondun icraçı direktoru Vüqar Səfərli fondun son illərdə mətbuatın maddi-texniki bazasının möhkəmlənməsi, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, kütləvi informasiya vasitələri ilə mərkəzi və yerli icra hakimiyyəti orqanları arasında münasibətlərin genişləndirilməsi, habelə mətbuat və teleradio məkanında ədəbi dilin qorunması məqsədilə həyata keçirdiyi çoxsaylı layihələr barədə məlumat verib. Fondun artıq 8 ildir ki, fəaliyyət göstərdiyini söyləyən icraçı direktor bildirib ki, Novruz bayramı münasibətilə elan edilmiş müsabiqəyə 2017-ci il yanvarın 25-dən martın 7-dək 71 kütləvi informasiya vasitəsindən 158 yazı təqdim edilib. Hər yazı 3 ekspert tərəfindən qiymətləndirilib.15 nəfər jurnalist I yerə, 30 nəfər jurnalist II yerə, 45 nəfər jurnalist isə III yerə layiq görülüb.

**Tədbirdə çıxış edən Prezident Administrasiyasının İctimai-Siyasi məsələlər şöbəsinin müdir müavini Vüqar Əliyev bildirib ki, bu gün Azərbaycan jurnalistikasının missiyası daha əhəmiyyətlidir:** "Çünki Azərbaycan jurnalistikası bu gün daha güclüdür, onun fəaliyyəti daha genişdir. Azərbaycanda mediaya dövlət dəstəyi siyasəti bu gün Azərbaycan prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Bu gün Azərbaycan mediası heç bir tarixi mərhələdə olmadığı qədər dövlətin dəstəyini, diqqətini və qayğısını hiss edir. Bu gün Azərbaycan mediası qlobal informasiya şəbəkəsinin layiqli üzvünə çevrilərək, Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatırılmasında mühüm rol oynayır. Azərbaycan mediası Azərbaycan dövlətinin təəssübünü çəkir, maraqlarını müdafiə edir".

Onu da qeyd edək ki, "Yeni Müsavat" qəzetinin redaktoru Zahid Səfəroğlu da qaliblər arasındadır.

❑ Əli RAİS
Fotolar müəllifindir


Artur Sərkisyan

## Basqınçılara yardım edən erməni öldü

**Ötən ilin yayında İrəvanda polis məntəqəsini ələ keçirən silahlılara ərzaq aparmış Artur Sərkisyan martın 16-da vəfat edib. Novator.az-ın məlumatına görə, Artur Sərkisyan Ermənistan Tibb Mərkəzində müalicə alırdı.**

2016-cı il iyulun 17-nə keçən gecə Ermənistan paytaxtında patrul-mühafizə polkuna basqın edən silahlı şəxslər polis əməkdaşlarını girov götürüb, radikal müxalifətçi Jirayr Sefilyanı həbsdən buraxmaq tələbi qoyublar, hökumətin istefası şüarlarını səsləndiriblər. Basqın zamanı və sonrakı günlərdə 3 polis əməkdaşı həlak olub, bir neçə nəfər yaralanıb. İyulun 31-də dəstə silahı yerə qoyaraq hüquq-mühafizə orqanlarına təslim olub.

49 yaşlı Artur Sərkisyan basqın günlərində ərzaq dolu maşını ilə polis postunu dağıdaraq silahlılara yardım aparıb. Cinayətə yardım ittihamı ilə tutulan Artur Sərkisyan dekabr ayında paytaxtı tərk etməmək şərti ilə azadlığa buraxılıb. Qaydaları pozduğu üçün o, 2017-ci ilin fevralında yenidən həbs edilib. Etiraz əlaməti olaraq Artur Sərkisyan aclıq aksiyası keçirib və onun səhhəti pisləşib. Martın 6-da parlamentin bir qrup deputatı onu zaminə götürmüşdü.

## Kraliça "Brexit"i təsdiqlədi

**Böyük Britaniyanın Avropa İttifaqını tərk etməsini nəzərdə tutan qanun qüvvəyə minib.**

APA-nın "RİA Novosti"yə istinadən verdiyi məlumata görə, Böyük Britaniya kraliçası II Yelizaveta qanun layihəsini təsdiqləyib. Kraliçanın qərarından sonra baş nazir Tereza Mey Aİ-dən çıxmağı nəzərdə tutan Lissabon müqaviləsinin 50-ci maddəsini işə sala bilər.

Hələlik hökumət "Brexit" prosedurasının işə salınma tarixi və detalları barədə məlumat vermir. Yerli KİV bildirir ki, baş nazir Hollandiyadakı seçkilərin yekun nəticələrini və bu həftə sonu Şotlandiya Milli Partiyasının konfransının nəticələrini gözləyəcək. "Brexit"in martın 27-də işə salınacağı güman edilir.

London ilə Brüssel arasında danışıqlar 2 il davam edəcək. Bu isə o deməkdir ki, Böyük Britaniya Aİ-dən 2019-cu ilin yazında çıxa biləcək.



## Yazarlar yeni birlik yaratdılar

**Azərbaycanda bir qrup yazar bir araya gələrək "Qələm" Yazarlar Birliyi təsis edib. "Qafqazinfo" xəbər verir ki, qurumun təsisçiləri bununla bağlı təqdimat mərasimi keçiriblər.**

Təsisçilərdən biri olan Qurban Cəbrayıl bildirib ki, "Qələm" Yazarlar Birliyi Azərbaycan yazıçılarının, jurnalistlərinin, şairlərinin, filosoflarının, araşdırmaçılarının, tərcüməçilərinin, ümumiyyətlə, söz-fikir adamlarının, daha çox da İslami, mənəvi-əxlaqi mövzularda yazıb-yaradan qələm sahiblərinin arzularının ifadəçisinə çevrilməyə çalışacaq: "Qurumun ayda bir dəfədən az olmayaraq keçiriləcək toplantılarında yeni işıq üzü görən kitabların təqdimatı, maraq doğuran əsərlərin müzakirəsi, əlamətdar tarixi hadisələr və yubileylərin keçirilməsi, yazarların hüquq və azadlıqlarının müdafiəsi, vətənimizə, dinimizə, mənəvi-əxlaqi dəyərlərimizə yönələn təhqir, böhtan, hədə dolu yazıların cavablandırılması, yanlış, həqiqətdən uzaq informasiyaların təkzibi və sair kimi məsələlər nəzərdə tutulmuşdur".

Q. Cəbrayıl deyib ki, təşkilati məsələlərin həlli ilə bağlı rəsmi qeydiyyata alınmaq üçün Ədliyyə Nazirliyinə müraciət olunacaq.




# FED-in qərarı manatın məzənnəsinə necə təsir edəcək?

## Azərbaycan valyuta bazarına bu qərar mənfi təsir göstərməyib, amma...

**Martın 15-də ABŞ-ın Federal Ehtiyatlar Sisteminin (FED) Açıq Bazar Əməliyyatları üzrə Komitəsinin (FOMC) iclası keçirilib. FED uçot dərəcəsini 0,25 % artırıb. Qeyd edək ki, sonuncu dəfə FED uçot dərəcəsini ötən il artırıb.**

2016-cı il dekabrın 14-də tənzimləyici uçot dərəcəsinin baza faiz dərəcəsinin illik 0,5-0,75% artırılması barədə qərar qəbul edib. Bundan sonra keçirilən iclaslarda uçot dərəcəsi dəyişdirilməyib.

FED-in qərarları Azərbaycanda da hər zaman həssaslıqla izlənilir və bunun manata mümkün təsir variantları müzakirə olunur.

Digər tərəfdən, “Bank of America” korporasiyasının Rusiya və MDB üzrə baş iqtisadçısı Vladimir Osakovski bildirib ki, Azərbaycan manatı möhkəmlənmək üçün böyük potensiala malikdir. Bankir qeyd edir ki, Azərbaycan hökuməti tərəfindən fiskal və pul-kredit siyasətindən aparılan korreksiya müəyyən formada uğurlu olub.

**V. Osakovskinin sözlərinə görə, bank sektorundakı problemlər idarəolunan səviyyədədir:** “Sərt pul-kredit siyasətinə baxmayaraq, manat möhkəmlənmək üçün böyük potensiala malikdir”.

Lakin yerli iqtisadçılar heç də belə düşünmürlər.

**İqtisadçı ekspert Rəşad Həsənov hesab edir ki, FED-in uçot dərəcələrini dəyişdirməsinin manata təsiri kifayət qədər məhduddur:** “Onu da nəzərə almaq lazımdır ki, dolayısı təsir neftin qiymətindən qaynaqlanır. Neft gəlirlərinin azalması ilə bu vəsaitlərin iqtisadiyyata inteqrasiyasının azalması da qısa müddətdə bazara öz təsirini göstərmir. Lakin psixoloji təsirləri var. Azərbaycan ictimaiyyəti xüsusilə son iki ildə FED-in uçot dərəcəsi ilə bağlı qərarlarını ciddi şəkildə və həyəcanla izləyir. Zaman-zaman biz qeyd edirik ki, bu qərarların Azərbaycan iqtisadiyyatına, manatın məzənnəsinə təsiri məhduddur. Digər bir məsələ isə ondan ibarətdir ki, valyuta bazarları FED-in uçot dərəcəsini artıracağı ilə bağlı 100 faizlik qənaətə gəldikləri üçün qiymətləndirməni əvvəlcədən həyata keçirmişdilər. İndi də çox təəccüblü bir hadisə baş verdi. FED uçot dərəcəsini artırdıqdan sonra ABŞ dolları ucuzlaşıb. Halbuki bahalaşmalı idi. Ancaq Yellenin açıqlamasından sonra uçot dərəcələrinin artırılması ilə bağlı ehtimallar artdığı üçün hazırda dolların ucuzlaşması müşahidə olunur. Həm də ötən dövr ərzində uçot dərəcələrinin artacağı proqnozu səbəbindən bazar dollara kifayət qədər doyduğu üçün bu gün dollar satışı ilə bağlı kütləvilik müşahidə olunmur. Faktiki olaraq Azərbaycan valyuta bazarına bu qərar mənfi təsir göstərməyib”.



**ABŞ bankının iqtisadçı ekspertinin açıqlamasına gəlincə, Rəşad Həsənov qeyd etdi ki, məsələ heç də onun dediyi qədər sadə deyil:** “Bu gün bir boğucu siyasət həyata keçirilir. Manat kütləsinin daralması, hansısa variantlarla idxalın həcminin azaldılması, dövlət vəsaitləri hesabına idxal məhsullarının alışına məhdudiyyət qoyulması, xaricə çıxarılan valyutalarla bağlı qadağaların günü-gündən sərtləşdirilməsi, bank əməliyyatlarında, nağdlaşdırmada, bu kimi məsələlərdə məhdudiyyətlər, büdcə xərcləmələrinin azaldılması və sair bu kimi yollarla hökumət bazarda şok effektlərin qarşısını almağa çalışır. Ancaq bu doğru yanaşma deyil. Uzunmüddətli dövrdə də heç bir halda effektiv ola bilməz. Təbii ki, qısamüddətli dövrdə bu gün bizim müşahidə etdiyimiz kimi, bazarda tələbin məhdudlaşması nəticəsində sanki manat möhkəmlənirmiş kimi bir görüntünün yaranması ABŞ ekspertlərini bu qənaətə gəlməyə sövq edib. Ancaq hökumət bu prosesi uzun müddət davam etdirərsə, nəticədə real sektorun zəifləməsinə gətirib çıxaracaq. Bu da yenidən manatın üzərində təzyiq formalaşdıracaq. İqtisadiyyat manatın arxasında dura bilməyəcək. Bu baxımdan, hökumət üçün ən gözəl variant pul kütləsinin genişləndirilməsi siyasətidir. İqtisadiyyatda təşviqedici siyasət həyata keçirmək, alıcılıq gücünü artırmaq lazımdır. Azərbaycanda istehlak tamamilə yerli istehsala yönəlib, ixrac yoxdur. Belə bir şəraitdə hökumət genişləndirici pul siyasətini həyata keçirməlidir. Bu cür boğucu siyasət iqtisadiyyatı daha da zəiflədəcək. Manatın orta və uzunmüddətli dövrdə möhkəmlənmə ehtimalı yoxdur. Yalnız hər hansı fors-major hal baş verərsə, neftin qiyməti 20-30 dollar bahalaşarsa, o zaman biz manatın möhkəmlənməsini şərtləndirən bazar şərtlərindən danışa bilərik”.

**İqtisadçı ekspert Natiq Cəfərli isə hesab edir ki, FED, gözlənildiyi kimi, uçot dərəcəsini 0,25% artırdı və bunu maliyyə bazarları öncədən artıq ehtimal edib qiymətlərə daxil etmişdilər:** “Əsas məsələ FED-in 2017-ci ildə 3, və ya 4 dəfə faiz artıracağı məsələsi idi. FED rəhbəri 3 dəfə faiz artacağını söylədi, bu, maliyyə bazarlarına pozitiv siqnal oldu, dollar hətta azacıq ucuzlaşdı. Amma gəlin reallığa baxaq, 2017-ci ilin sonuna uçot dərəcəsi 1,5% olacaq. 2016-nın dekabrında 0,50% idi, deməli, bu il 1% artım olacaq. Yaxın 2 ildə uçot dərəcəsini FED 3%-ə qədər artıracaq. Deməli, dünən gecə birjaların qısamüddətli və emosional reaksiyası qalıcı və dayanıqlı deyil. FED-in qərarları Azərbaycana birbaşa təsir etmir, çünki bizdə primitiv resurs modelidir, bazar alətləri və institutları yoxdur, dövlət nəzarətli məmur "kapitalizmi" hökm sürür. Yəni qiymətli kağızlar bazarı, birja yoxdur. Ölkəmizə FED-in dolayı təsiri var və olacaq. Birincisi, dünyada dollar bahalaşanda bizdə də bu proses gedəcək. İkincisi, baha dollar ucuz əmtəə deməkdir ki, neftin bahalaşması xəyalı da bu qərarla puça çıxacaq. Manata basqılar artacaq, dollar bizdə daha da bahalaşacaq".

❑ **Nərgiz LİFTİYEVA**



# 5 nəfərin ölümü ilə bağlı daha bir iddia - qida zəhərlənməsi...

## Xırdalanda bir gecədə beş qadının ölümü ilə bağlı bəzi qaranlıq məqamlar qalmaqdadır

**Xırdalanda bir gecədə beş qadının ölümü ilə bağlı bəzi qaranlıq məqamlar qalmaqdadır. Doğrudur, dünyasını dəyişənlərin ilkin ehtimallara görə, dəm qazından zəhərləndikləri bildirildi. Lakin binanın Mənzil İstismar Sahəsinin (MİS) sədri İmamverdi Sadıqovun açıqlaması bu ehtimalları şübhə altına alıb. Belə ki, MİS sədri iddia etdi ki, o, mənzilə daxil olan zaman qaz sönülü olub. Eyni zaman bildirib ki, ümumiyyətlə, mənzilə daxil olan qaz xətti açıq olmayıb. Bəs belə olan təqdirdə bir mənzildə gecə ilə beş nəfər qadının ölməsinin səbəbi nədir? Bu halda ağıla bir fakt gəlir. O da qida zəhərlənməsidir. Meyitlər ekspertizaya aparılsa da hələ ki qızların ölüm səbəbi ilə mətbuata heç bir açıqlama verilmir. Faktla bağlı Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, iş üzrə müvafiq ekspertizalar, o cümlədən məhkəmə-tibbi və məhkəmə-texniki-təhlükəsizlik ekspertizaları təyin olunub.**

Hadisə ilə bağlı Milli Məclisin deputatı Elmira Axundova haqqın.az-a açıqlamasında “Azəriqaz”ın insanların həyatına və sağlamlığına məsuliyyətsiz yanaşmasından hiddətləndiyini bildirib: “Dəm qazı nəticəsində baş verən silsilə ölümləri durdurmaq lazımdır. ”Azəriqaz" müəyyən ödəniş qarşılığında qaz sayğacları quraşdırdığı mənzillərdə karbon oksidin səviyyəsini göstərən xüsusi cihazlar da quraşdıra bilər. Hələ ki təhlükəsizlik tələblərində karbon oksidin təhlükəli həddə çatdığına dair xəbərdarlıq edən qurğularla bağlı bənd yoxdur. Ancaq bu müddəanı mütləq “Azəriqaz”la abonent arasında bağlanan müqaviləyə daxil etmək lazımdır."

Deputat həmçinin “Azəriqaz”ı əhaliyə verilən mavi yanacağı xəbərdarlıq etmədən kəsməkdə və eyni qaydada, heç bir məlumat verilmədən yenidən mənzillərə verməkdə günahlandırıb.

**“Azəriqaz” İstehsalat Birliyi məsələ ilə bağlı hələ ki yaxasını kənara çəkib. Qurumun mətbuat xidmətinin rəhbəri “Yeni Müsavat”a bildirib ki, Xırdalan şəhərində 5 qızın vəfat etdiyi hadisə hüquq-mühafizə orqanları tərəfindən araşdırılır:** “Araşdırma yekunlaşandan sonra tələbələrin ölüm səbəbi bilinəcək. Qazın tərkibi ilə bağlı məsələ SOCAR-ın səlahiyyətindədir. Nazirlər Kabinetinin müvafiq qərarı ilə aidiyyəti qurumlar zamanla mənzillərə baxış keçirirlər”.

**Məsələ ilə bağlı sabiq polis rəisi Mahmud Hacıyev “Yeni Müsavat” bildirib ki, araşdırma aparılıb, məlumat verilməlidir:** “İlk olaraq məhkəmə-tibbi ekspertizanın rəyini gözləməlidirlər. Burada ekspertizanın rəyindən çox şey asılıdır. Bu cür halları adətən prokurorluq orqanları araşdırırlar. Polis, sadəcə, ora kömək məqsədilə gedir. İndi məsələ müəmmalıdır. Ona görə də ciddi araşdırma aparılmalıdır. Adətən belə hallarda dərhal cinayət işi açılmır. Araşdırma aparılır və iş material qismində icraata qəbul olunur. Əgər araşdırma nəticəsində məlum olsa ki, işdə kriminaloji faktor var, o zaman cinayət işi açırlar”.

❑ **Əli RAİS**

# Bərdədə qardaş 21 yaşlı bacısını baltalayıb öldürdü

**Martın 16-da Bərdə şəhərinin Füzuli küçəsində yaşayan 22 yaşlı Hafiz Vaqif oğlu İbrahimli 21 yaşlı bacısı Leyla İbrahimlini baltalayaraq öldürüb. Bərdə Şəhər Polis Şöbəsindən virtualaz.org saytına bildiriblər ki, hadisə qısqanclıq zəminində baş verib. “İlkin məlumatlara görə, 22 yaşlı Hafiz Vaqif oğlu İbrahimli 21 yaşlı bacısı Leyla İbrahimli ilə münaqişə edib. Bundan sonra o, bacısını baltalayaraq öldürüb. Bacısını öldürəndən sonra isə polis şöbəsinə gələrək, törətdiyi hadisəni etiraf edib”, - polisdən bildiriblər. Məlumatlara görə, Leyla İbrahimli bir müddət əvvəl qeyri-rəsmi yaşadığı kişi ilə ayrılıb. Faktla bağlı cinayət işi açılıb.**

# Prezident geniş əfv sərəncamı imzaladı - 423 məhkum azadlıqda!

## Əfv edilənlər sırasında Rüfət və Rövşən Zahidovlar, NİDA-çı Elvin Abdullayev, Əbdül Əbilov da var; general Zakir Nəsirovdan ömürlük həbs cəzası götürüldü

**Martın 16-da prezident İlham Əliyev Novruz bayramı ilə əlaqədar olaraq əfv sərəncamı imzalayıb. Bu sərəncamla 423 şəxs əfv edilib, iki ömürlük məhbusun cəzası müddətli həbslə əvəzlənib, cəzasının çəkilməsi təxirə salınmış bir qadın cəzadan azad edilib, azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 5 nəfər cəzadan azad ediliblər. Əfv edilənlər sırasında ümumilikdə 14 məhbus qadın da var. Bu, indiyədək imzalanmış sayına görə ən geniş əfv sərəncamı kimi tarixə düşüb.**

İnsan Hüquqları üzrə işçi Qrupunun təqdim etdiyi siyahıdan 7 nəfər əfvə düşüb. Bu haqda modern.az-a hüquq müdafiəçisi Səidə Qocamanlı məlumat verib. S.Qocamanlı bildirib ki, onların arasında Qənimət Zahidin qohumları- Rüfət və Rövşən Zahidovlar, NİDA-çı Elvin Abdullayev, Əbdül Əbilov, Emin Millinin qaynı Nazim Ağabəyov, həmçinin bloggerlər də var.

**Hüquq müdafiəçisi qeyd edib ki, REAL hərəkatının sədri İlqar Məmmədovun da adı daxil olmaqla 27 nəfərlik siyahı təqdim ediblər:** "Onlardan 4 nəfəri ömürlük cəza alanlardır. 23 nəfərdən də 7 nəfər azad olunub. Ömürlük həbs cəzası alanlarla bağlı işləri davam etdirəcəyik".

**Sərəncamda ömürlük həbs cəzasına məhkum edilmiş iki nəfərin də cəzası müddətli həbslə əvəzlənib. Sərəncamda deyilir:** "Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 2007-ci il 16 yanvar tarixli hökmü ilə ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, 1947-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Nəsirov Zakir Əsəd oğlunun cəzası 15 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilsin.




Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 2004-cü il 30 sentyabr tarixli hökmü ilə ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, 1981-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Hüseynov Ceyhun Zakir oğlunun cəzası 25 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilsin".

2015-ci ilin oktyabrında Milli Təhlükəsizlik Nazirliyində Eldar Mahmudov da daxil olmaqla, nazirliyin bir sıra yüksək vəzifəli şəxslərinin istefası ilə nəticələnən xüsusi əməliyyatdan sonra məşhur "Qara Kəmər" işinin yenidən araşdırılması gündəmə gəlmişdi. Bildirilirdi ki, cinayət işi üzrə əsas fiqurant olan Hacı Məmmədov eks nazir Eldar Mahmudovun dövründə ona hədə-qorxu və təzyiqlər edildiyi üçün məhkəmədə həqiqəti deyə bilmədiyini, DİN-in Baş Cinayət-Axtarış İdarəsinin sabiq rəisi, general Zakir Nəsirovun bu işlə heç bir əlaqəsi olmadığını etiraf edib. Onun sözlərinə görə, Z.Nəsirov süni olaraq bu işə cəlb edilib.

Zakir Nəsirov 8 iyun 2005-ci ildə həbs edilib, istintaqda və 2006-cı ildən 2008-ci ilə qədər davam edən bütün məhkəmə proseslərində Hacı Məmmədovun onun haqqında yalan ifadələr verdiyini bildirib. Bu sərəncamdan sonra Z.Nəsirovun həbsxanada cəza müddəti 3 il qalır...

Əfv edilənlər siyahısında NİDA üzvü Əbdül Əbilov da var. NİDA-çı Əbdül Əbilov 2013-cü ilin noyabrın 22-də tutulub. 2014-cü ilin mayın 27-də Bakı Ağır Cinayətlər Məhkəməsi onu 5 il 6 ay müddətinə azadlıqdan məhrum edib. Bakı Apelyasiya Məhkəməsi hökmü qüvvədə saxlayıb. Bloqçu narkotik alverində təqsirli bilinib. Ailəsi isə onun facebookdakı fəallığına görə həbs olunduğunu deyirdi. Əbdül Əbilov 13 saylı cəzaçəkmə müəssisəsində cəza çəkirdi.

Azadlığa buraxılan Elvin Abdullayev 2015-ci il yanvarın 8-də təhsil aldığı Azərbaycan Dövlət Pedaqoji Universitetindən imtahandan çıxıb evə gələrkən həbs olunub. İttihama görə, onun üzərindən 3 qram heroin tapılıb. Gənc fəal Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 6 il azadlıqdan məhrum edilib. Sonradan Bakı Apelyasiya Məhkəməsi də hökmün qüvvədə saxlanılması barədə qərar verib.

Elvin Abdullayev isə ittihamı rədd edir və facebookda hökumət əleyhinə tənqidi statuslarına görə şərləndiyini bildirirdi. "Amnesty İnternational" beynəlxalq insan haqları təşkilatı Elvin Abdullayevi "vicdan məhbusu" elan etmişdi.

"Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahidin qohumları olan Rüfət və Rövşən Zahidovlar da azadlığa buraxılanlar sırasındadır. Onlar 2015-ci ilin iyulunda həbs edilib. Zahidovlara qarşı Cinayət Məcəlləsinin 234.4.1 (bir qrup şəxs tərəfindən narkotik saxlama, yayma və ya satma) və 234.4.3-cü (külli miqdarda törədildikdə) maddələri ilə ittiham irəli sürülüb. 2016-cı il iyunun 28-də Bakı Ağır Cinayətlər Məhkəməsində hökm oxunub. Eldar Mikayılovun sədrlik etdiyi hakimlər kollegiyasının hökmü ilə Rüfət Zahidov və əmisi oğlu Rövşən Zahidovun hər biri 6 il azadlıqdan məhrum edilib.

Azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 5 şəxs sırasında Emin Millinin qaynı Nazim Ağabəyov da var. IT mütəxəssisi olan Nazim Ağabəyov xalq rəssamı Mais Ağabəyovun oğludur. O, 2015-ci il iyulun 23-də həbs edilib. Ona qarşı CM-in 234.4.3-cü (külli miqdarda narkotik satışı) maddəsi ilə ittiham irəli sürülüb. 2016-cı ilin aprelində keçirilən məhkəmədə CM-in 234.4.3-cü (satış məqsədilə külli miqdarda narkotik) maddəsi ilə ona verilən ittiham CM-in 234.1-ci (şəxsi istehlak miqdarından artıq narkotik saxlama, daşıma) maddəsinə tövsif edilib. Bu maddə ilə Nazim Ağabəyova 3 il azadlıqdan məhrumetmə cəzası təyin olunub. Onun ötən il iyulun 23-dən bəri həbsdə saxlanıldığı müddət çıxılmaqla, qalan cəza şərti hesab olunub. Ağabəyov iki il sınaq müddəti olmaqla, şərti cəza ilə məhkəmə zalından azadlığa buraxılıb.

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı "Qafqazinfo"ya əfvlə bağlı açıqlama verib:** "Bizim siyahıdan bir neçə nəfərin adı əfvə salınıb. Onlardan biri Elvin Abdullayevdir. Siyahıda İlkin Rüstəmzadə, Əli İnsanov və İlqar Məmmədovun adı yoxdur". Qeyd edək ki, Azərbaycan müstəqillik əldə etdikdən bu günə qədər 62 əfv sərəncamı verilib, bunun nəticəsində 10 minə yaxın şəxs cəzadan azad edilib və azadlığa qovuşub.

❑ **"Yeni Müsavat"**



# Əhəd Abıyev yenə rinqə çıxdı

## Daşkəsəndə Novruz bayramı keçirildi; hərbi hissədə əsgər və zabitlərlə görüş keçirilib





**Martın 16-da Daşkəsən şəhərinin Heydər Əliyev meydanında Novruz bayramı ilə bağlı rayon sakinlərinin iştirakı ilə bayram tədbiri keçirilib. Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev tədbirdə təbrik nitqi söyləyib.**

O, çıxışında hər kəsi bayram münasibətilə təbrik edib: "Sevindirici haldır ki, bu gün həm də Daşkəsən şəhərinin salınmasının 69-cu ildönümü gününə təsadüf edir. Novruz bayramı Azərbaycanın digər bayramlarından ona görə seçilir ki, təbiətdən gəlmiş bayramdır, eyni zamanda da vətəndaşların maddi vəziyyətindən asılı olmayaraq, hər bir insan onu sevinc hissi ilə qeyd edir.

Ümummilli lider Heydər Əliyev Novruz bayramı haqqında danışarkən demişdir: "Novruz bayramı insanlarda həmişə xoş əhval-ruhiyyə yaradır, milli ruhu yüksəldir, vətənpərvərlik hissiyyatlarını daha da möhkəmləndirir və hər bir insanı Vətəninə, millətinə, ölkəsinə, doğma dövlətinə daha da sadiq olmağa dəvət edir. Ona görə də bu bayram Azərbaycanın dövlət müstəqilliyinin və milli azadlığının rəmzidir".

Ölkəmizdə çox sevilən bu günün bayram edilməsi əsrlərdən bəri qoruyub saxladığımız gözəl adət-ənənələrimizin əbədi yaşamasının parlaq nümunəsidir".

**Ə.Abıyev daha sonra deyib:** "Prezidentimiz cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində təbii sərvətlərlə zəngin Daşkəsənimiz də son illərdə özünün sürətli inkişaf dövrünə qədəm qoymuşdur. Bu illər ərzində Daşkəsənin sosial-iqtisadi, mədəni siması tamamilə dəyişmişdir. 2014-cü ilin oktyabr ayında möhtərəm prezidentimiz cənab İlham Əliyevin və Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Daşkəsənə unudulmaz tarixi səfəri rayonumuzun sürətli sosial-iqtisadi inkişafının parlaq təzahürü olmuşdur.





Bu xoş əhval-ruhiyyəli bayram günündə möhtərəm prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya bütün Daşkəsən ictimaiyyəti və şəxsən öz adımdan yüksək ehtiramımızı, sədaqət və inamımızı, göstərdikləri diqqət və qayğıya görə dərin minnətdarlığımızı bildiririk".

Ə.Abıyev təbrik nitqindən sonra ümumrayon tədbirində nümayiş etdirilən el sənəti və milli mətbəx nümunələrinə baxış keçirib. Rayonun Heydər Əliyev meydanında keçirilən ümumrayon şənliyi el aşıqları, musiqiçilərin ifaları və idmançıların müxtəlif idman nömrələri və rəngarəng əyləncəli proqramları ilə davam etdirilib.

Daha sonra bayram tədbiri rayon ərazisində yerləşən ən müasir tipli yeni tikilmiş "N" saylı hərbi hissədə əsgər və zabitlərlə birgə yüksək səviyyədə davam etdirilib. Əhəd Abıyev və rayon ictimaiyyəti bu bayram tədbirində iştirak edib, gətirdikləri hədiyyələri və bayram sovqatlarını əsgərlərə veriblər.

Əhəd Abıyev hər il olduğu kimi, bu il də bayram münasibəti ilə təşkil edilən şənlikdə boks rinqində öz məharətini göstərib. Musavat.com saytı tədbirdən çəkilən fotoları təqdim edir.

YENİ MÜSAVAT
N 59 (6673) 17 mart 2017

# Bakı nəhəng foruma ev sahibliyi etdi - mühüm mesajlar verildi

## Prezident İlham Əliyev: "Ermənistana qarşı sanksiyalar tətbiq olunmalıdır, məhz onda bu, ədalətli olacaq, vahid standart olacaq"

**Martın 16-da Azərbaycan paytaxtında Nizami Gəncəvi Fondunun təşkilatçılığı və Diasporla iş üzrə Dövlət Komitəsinin dəstəyi ilə V Qlobal Bakı Forumu öz işinə başlayıb. "Beynəlxalq münasibətlərin gələcəyi: güc və maraqlar" mövzusuna həsr olunan foruma 50-dən çox ölkəni təmsil edən 260-dan çox qonaq qatılıb.**



**Tədbirdə iştirak edən Azərbaycan prezidenti İlham Əliyev çıxışında bildirib ki, Qlobal Bakı Forumu Azərbaycanda birinci dəfə deyil keçirilir və artıq ənənəyə çevrilib:** "Azərbaycan müstəqil dövlət kimi nisbətən gəncdir. Ötən il biz dövlət müstəqilliyinin bərpa olunmasının 25 illiyini qeyd etdik. Bizim fəaliyyətimiz, ölkədə həyata keçirdiyimiz layihələr bütün regiona müsbət təsir göstərir və bu, Azərbaycanın dünyaya təqdim olunması vasitələrindən biridir".

**Prezident vurğulayıb ki, bundan əvvəlki Bakı Forumundan bəri dünya heç də daha təhlükəsiz yerə çevrilməyib:** "Regionumuzda hələ də həlli uzanmış münaqişələr, qarşıdurmalar, müharibələr mövcuddur. Bu, əlbəttə ki, çox təhlükəli tendensiyadır".

İlham Əliyev qeyd edib ki, Azərbaycan öz regionunda mühüm sabitləşdirici amil rolunu oynayır və ölkənin təşəbbüsləri regional əməkdaşlığa və regionda təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə istiqamətlənib.

Dövlət başçısı əlavə edib ki, Azərbaycan ada deyil və qonşu ölkələrdə baş verən hadisələr ölkədə böyük narahatlıq doğurur.

**Prezident xatırladıb ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi - Dağlıq Qarabağ və yeddi ətraf rayon 20 ildən çoxdur davam edən erməni işğalı altındadır:** "İşğal olunmuş ərazilərdə bütün infrastruktur dağıdılıb, Azərbaycanın tarixi və dini abidələri məhv edilib. ATƏT-in faktaraşdırıcı missiyası işğal olunmuş ərazilərə nümayəndə heyəti göndərib və onların hesabatı da açıq-aşkar göstərir ki, bütün binalar və Azərbaycanın tarixi irsi məhv edilib".

**İlham Əliyev deyib ki, bütün nüfuzlu beynəlxalq təşkilatlar işğalçı erməni qoşunlarının Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən qərar və qətnamələr qəbul edib:**

"Beynəlxalq arenada ali qurum hesab olunan BMT Təhlükəsizlik Şurası, sitat gətirirəm, "erməni qoşunlarının işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını" tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələr kağız üzərində qalır, Ermənistan artıq 25 ildir ki, onları yerinə yetirmir. Bu onu göstərir ki, beynəlxalq təşkilatların, xüsusilə də BMT Təhlükəsizlik Şurasının qərarlarının icra mexanizmi mövcud deyil". Dövlət başçısı xatırladıb ki, Azərbaycan Ermənistan tərəfindən Azərbaycanın dinc sakinlərinə qarşı törədilmiş təcavüz, işğal və hərbi cinayətlər barədə məsələni dəfələrlə beynəlxalq təşkilatlar qarşısında qaldırıb: "Ermənistana qarşı sanksiyalar tətbiq olunmalıdır. Məhz onda bu, ədalətli olacaq, vahid standart olacaq".

Daha sonra forum "Beynəlxalq münasibətlərin gələcəyi: güc və maraqlar" mövzusunda müzakirələrə başladı. Moderator, İsgəndəriyyə kitabxanasının direktoru, NGBM həmsədri İsmayıl Serageldin forumun təşkilatçısına təşəkkür etdikdən sonra iştirakçıları salamladı və mövzu ətrafında müzakirələrlə əlaqədar növbəli qaydada iştirak edən 6 ölkənin prezidentinə söz verdi.

**Monteneqro Respublikasının prezidenti Filip Vurjaneviç öncə yüksək səviyyəli tədbirə görə Nizami Gəncəvi adına Beynəlxalq Mərkəzinə təşəkkürünü bildirdi. Mövzu barədə çıxış edən prezident dedi ki, beynəlxalq münasibətlərin gələcəyi keçmiş təcrübəmizə və siyasi, elmi rəylərə əsaslanmalıdır.**

**O, terror və digər problemlər nəticəsində qlobal problemlərin ortaya çıxdığını dedi.** "Nizami Gəncəvi də şeirlərində yazırdı ki, insanlar və dövlətlər dəyərlərə hörmət etməklə əməkdaşlıq edə bilərlər"-prezident əlavə etdi.

**Öz ölkəsi barədə danışan F.Vurjaneviç dedi ki, Monteneqro regionda bütün dövlətlər üçün yaxşı bir nümunə olacağına ümid edir.**

"Biz dünyada baş verənlərdən ciddi şəkildə narahatıq. Amerikanlar hesab edirlər ki, bizə yardım edəcəklər. Hazırda elə bir nəzəriyyə yoxdur ki, bu təhlükənin aradan qaldırılması üçün ondan istifadə edək". Bunu isə Makedoniya prezidenti Georgiy İvanov söylədi.

**Albaniya prezidenti Bujar Nişani dövlət başçıları və rəsmiləri üçün çox yaxşı imkan yaradıldığını bildirdi:** "Biz Avropa İttifaqının dəyərlərinə yaxınlaşmaq barədə düşünməliyik. Bunun sayəsində sabitliyi bərqərar edə, nəticədə inkişaf edə bilərik"-deyə, o əlavə etdi. Həmçinin liderləri xalqları ilə geniş müzakirələrdən sonra addımlar atmağa çağırdı.

**Gürcüstan prezidenti Georgi Marqvelaşvili Rusiyanın işğalçı siyasətindən bəhs etdi:** "Gürcüstan nüvə dövləti olan Rusiya tərəfindən işğal olunub. Düzdür, bu işğal 2008-ci ildə olub. Amma bu proses daha əvvəl, 90-cı illərin əvvəllərində hibrid müharibə ilə başlayıb. Millətlər nə qədər kor ola bilər ki, bunu görməsin? Artıq Krımın işğalından sonra bu vəziyyətə Ukraynada da şahid olmuşuq. Biz aqressiyanı pisləməliyik. Dünən Rusiya hökuməti işğal altındakı Sxenvali ilə bağlı növbəti qərar verib. Bununla presedent yaratmaq istəyir. Biz bu vəziyyətə kor qalmamalıyıq. Əgər biz qlobal dünyanı təhlükəsiz şəkildə saxlamaq istəyiriksə, hüququn aliliyinə inanmalıyıq. Biz Azərbaycan, Türkiyəyə açıq şəkildə müttəfiqlik təklif edirik. Gürcüstan inkişaf layihələri naminə əməkdaşlığa həmişə hazırdır".

**Latviya prezidenti Raimonds Vejonis dedi ki, təhlükəsizlik məsələsi təkcə Avropaya deyil, digər dünya ölkələrinə də təsir göstərir:** "Bir-iki il əvvəllə müqayisədə biz təhlükəsiz dünyada yaşamırıq. Qeyri-müəyyənlik, təhlükəsizliklə bağlı problemlər nəticəsində beynəlxalq münasibətlər də dəyişib. Bu isə beynəlxalq asayişə təhlükə törədir. Biz birlikdə işləməli və birgə mübarizə aparmalıyıq".

**Səudiyyə Ərəbistanı şahzadəsi, İslami Çalışmalar Mərkəzinin direktoru Turki əl-Faysal da qlobal problemlərdən bəhs etdi.** "Biz elə bir dünyada yaşayırıq ki, internet dünyanı həm yaxınlaşdırır, həm də ayırır"-deyən mərkəz rəhbəri bildirdi ki, BMT qərarlarının icrası üçün mexanizmlər düşünülməlidir. Bu mənada böyük dövlətlərin daha çox məsuliyyət daşıdığını vurğuladı.

Daha sonra "Transatlantik münasibətlərin gələcəyi: Siyasi realizmə qayıdış" mövzusunda müzakirələr keçirildi.

Latviyanın sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri xanım Vayra Vike-Freyberqanın moderatorluğu ilə keçirilən tədbirdə çıxış edən Bolqarıstanın sabiq prezidenti Rasen Plevneliev Avropa İttiafaqında 11 böhranın olduğunu vurğuladı.

**Serbiyanın keçmiş prezidenti Boris Tadic dedi ki, bir sıra ölkələrdə hökm sürən böhran onu narahat edir.** "Hollandiyada və Avstriyadakı son seçkilərdən, həmçinin Böyük Britaniyanın qurumdan çıxmasından sonra Avropa İttifaqı da dəyişəcək. Dünyanın gələcəyi haqda düşünənlər ciddi narahatdır. Rusiya və Çin nəinki opponent, hətta düşmən kimi qələmə verilir, bununla öz durumumuzu daha da çətinləşdiririk"-deyə, o bildirdi.

**Ərəb Liqasının sabiq baş katibi Amre Moussa ədalətsizliyə etirazını maraqlı şəkildə ifadə etdi. Dedi ki, uzun müddətdir onun siyasi realizm, ikili standartlar və fundamental azadlıqlar, insan hüquqları ifadələri ilə problemləri var. Natiq dedi ki, bu gün problemlərin həlli yox, idarə olunması prosesi gedir:** "Mən özümü aldadılmış hiss edirəm".

**Argentinanın sabiq vitse-prezidenti Julio Cesar Cobos dedi ki, Obama və Trampın fikirləri tamamilə fərqlidir:** "ABŞ hələ də Moskvaya yaxınlaşmaqla öz narahatlığını azaldır. O deməkdir ki, siyasət iqtisadiyyatla sıx əlaqədardır. Düşünürəm ki, yeni administrasiya ilə ABŞ-ın dəyişikliklərə getməsinin şahidi olacağıq. Əgər milliyyətçi siyasət və sərhəd bağlanması baş verəcəksə, əlbəttə, bundan narahat olacağıq".

**Ukraynanın sabiq prezidenti Viktor Yuşşenkonun xanımı Katerina Yuşşenko dedi ki, Avropa öz öhdəliklərini yerinə yetirmədi:** "Biz Rusiyanın təcavüzü ilə üzləşmişik. Biz Dağlıq Qarabağdan başlamış Osetiya, Dnestryanı, Donbasa qədər münaqişələri görürük". O dedi ki, Obama hakimiyyətdə olanda Ukraynaya kifayət qədər dəstək verilməyib. Ümid ediyini dedi ki, yeni administrasiya köməyini əsirgəməyəcək".

**ABŞ dövlət katibinin Avropa və Avrasiya üzrə köməkçisinin sabiq müavini David Merkel isə Trampa qarşı tənqidləri cavablandırdı:** "Burada səsləndi ki, Trampın uzunmüddətli planı, proqramı yoxdur. Mən Reyqanın dövründə çalışmışam. Tramp ilk Amerika prezidentidir ki, 8 illik planı var. Onun uzunmüddətli düşüncə tərzi var. 1300 milyard dollarlıq layihə planlarına malikdir. Bu gün fiziki olaraq Ağ Evdə olsanız, görərsiniz ki, böyük sayda insan infrostruktur sahədədir. Tramp qarşısına qoyduğu vəzifələri icra edəcək, bu, onun təkrar seçilməsi üçün vacibdir. O, 8 illik dövrü öz qızı İvanka üçün hazırlayır".

"Müasir dövrdə beynəlxalq münasibətlərin formalaşmasında, dünyada gedən mürəkkəb və ziddiyyətli geosiyasi proseslərin tənzimlənməsində sülhün və sabitliyin təmin olunmasında beynəlxalq təşkilatların üzərinə mühüm vəzifələr düşür".

**Bunu isə Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov dedi. BMT-nin fəaliyyətsizliyinə diqqət çəkən dövlət rəsmisinin sözlərinə görə, müşahidələr və təcrübələrdən aydın olur ki, beynəlxalq təşkilatlar içərisində BMT-nin dünyada gedən geosiyasi proseslərə münasibətləri, beynəlxalq və regional təhlükəsizliyi təhdid edən münaqişələrin aradan qaldırılması istiqamətində göstərdiyi ziddiyyətli fəaliyyəti dünya ictimaiyyəti tərəfindən birmənalı şəkildə qarşılanmır:** "Bu təşkilatın əksər hallarda qəbul etdiyi qətnamə və qərarların imperativ xarakter daşımaması, dünyanın müxtəlif regionlarında münaqişələrin alovlanmasına səbəb olan təcavüzkar dövlətlərin cəzalandırılmasına ikili standartlar mövqeyindən yanaşması təəssüf hissi doğurur. Bu gün hamıya aydındır ki, bəzi Qərb dövlətlərinin təzyiqi altında BMT qəbul etdiyi qətnamə və qərarların yerinə yetirilməsinə eyni münasibəti göstərmir ki, bu da onun nüfuzuna ciddi zərbə vurur".

**Ə.Həsənov qeyd etdi ki, həmin sənədlərin icra mexanizmlərinin siyasiləşməsi nəticəsində Cənubi Qafqazda, Şərqi Avropada, Afrikanın bir sıra bölgələrində, Uzaq Şərqdə münaqişələrdən əziyyət çəkən dövlətlərin BMT-yə olan inamı getdikcə azalır:** "Dövlətlərin daxili işlərinə qarışmayan, yalnız beynəlxalq hüququn norma və prinsiplərindən çıxış edən Azərbaycan dünyanın müxtəlif ölkələrində mövcud olan münaqişələrin aradan qaldırılması üçün BMT-nin qəbul etdiyi qətnamələri onların tez bir zamanda yerinə yetirilməsini dəstəkləyir. Buna baxmayaraq, BMT vaxtilə İraqın dərhal cəzalandırılmasına rəvac verdiyi kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələrin də təxirə salınmadan yerinə yetirilməsi üçün prinsipial mövqe nümayiş etdirmir. Liviya ilə bağlı BMT TŞ-nin çıxardığı qətnamə dərhal icra olunduğu halda, BMT-nin Ermənistanla bağlı ayrı-ayrı vaxtlarda qəbul etdiyi 4 qətnamə 20 ildən çoxdur ki, yerinə yetirilmir. Baxmayaraq ki, BMT-nin bu qətnamələrində Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı bir daha vurğulanmış, hərbi əməliyyatlara son qoyulması və Ermənistanın işğal etdiyi ərazilərdən çıxarılması tələbləri bir daha irəli sürülmüşdür. Bütün bunların nəticəsidir ki, hazırda BMT-nin ikili standartlardan kənar, müstəqil bir qurum kimi fəaliyyət göstərməsi üçün təşkilatda ciddi islahatların aparılması, onun yenidən strukturlaşması və strategiyasında köklü dəyişikliklərin edilməsi zərurəti ortaya çıxır".

**Ə.Həsənov bildirdi ki, BMT-də islahatların aparılması məsələsi 21-ci əsrdə daha da aktuallaşıb:** "Hazırda bir çox ölkələr hesab edir ki, yalnız 5 dövlətin BMT-nin daimi üzvü kimi veto hüququna sahib olması və ümumiyyətlə, təşkilatın daimi üzvlüyü ilə bağlı meyarı ədalətli deyil. Digər tərəfdən, BMT-nin hansısa ciddi qərarlar qəbul etməsi Təhlükəsizlik Şurasının 15 daimi üzvünün konsensusa gəlməsindən asılıdır ki, bu da təşkilatın çevik və dinamik fəaliyyətinə böyük maneçilik yaradır". Dövlət rəsmisi dedi ki, BMT-də islahatların aparılması Ermənistana qarşı qəbul edilmiş 4 qətnamənin yerinə yetirilməsi üçün əlverişli imkanlar yarada bilər. Prezidentin köməkçisi çıxışını "bu gün dünyada dövlətlərin gücü, beynəlxalq hüquq və beynəlxalq balans arasında müvazinətin tapılması dünyanın xilasıdır" - deyə bitirdi.

**Forum öz işini bu gün davam etdirəcək.**

❑ **Elşad PAŞASOY**



# Avropa faşistləri seçmir

Xalid KAZIMLI

**Avropa seçicisi Asiya ekspertlərini, Amerika strateqlərini, Afrika müşahidəçilərini növbəti dəfə yanıltdı, faşizmə "yox" dedi. Məkan: Niderland, zaman - 15 mart, hadisə - seçki, iddiaçı - irqçi Azadlıq partiyası, nəticə - 19 mandat.**

Seçkidən öncə hamı düşünürdü ki, Niderlandın baş faşisti Gört Vildersin partiyası seçkinin birinci yerdə başa vuracaq, azı 25-30 faiz səs alacaq və hökumət qurma səlahiyyəti qazanacaq.

Əslində belə bir rəy də vardı ki, Vilders parlament seçkilərinin birincisi olsa da, hökumət komandası formalaşdırmaq hüququ qazansa da, ikinci, üçüncü yeri tutan partiyalar onunla koalisiyaya getməyəcəklər.

Bununla belə, açıq-aşkar irqçi və millətçi şüarlarla çıxış edən, gah Hollandiyaya pənah gətirmiş müsəlman qaçqınlara, gah da bu ölkədə yaşayan türklərə qarşı diskriminasiya səciyyəli fikirlər açıqlayan birinin seçkilərdə birinci yeri tutması faşizmin yüksəlişdə olduğu demək olacaqdı.

Ancaq elə olmadı, Vildersin partiyası rəy sorğularının proqnozlaşdırdığı nəticələrin əksinə oldu, o, ikinci yeri tutdu, həm də başqa iki partiya ilə təxminən eyni sayda mandat qazandı.

İndi seçkidə yenidən səs çoxluğu qazanmış hakim partiya yeni hökumət komandası quracaq və bu dəfə də faşistlər kənarda qalacaqlar.

Düzdür, hakim partiyanın liderləri də seçkiyə bir neçə gün qalmış millətçi ruhda açıqlamalar verdilər, hərəkətlər etdilər. Ancaq bunun seçki texnologiyası, daha dəqiqi, yaxın məqsədlər güdən siyasi avantüra olduğu göz önündəydi.

Seçki bitdi, baş nazir Ruttenin partiyası və başçılıq etdiyi hökumət komandası artıq öz ənənəvi siyasətini yeritməyə başlayacaq, Türkiyə ilə pozulmuş münasibətlər də bərpa ediləcək (yəqin ki, 16 aprel referendumundan sonra).

Bu hadisə göstərir ki, Avropanın faşistləşməsinə dair türk-ərəb-müsəlman dünyasını sarmış əndişənin elə də ciddi əsasları yoxdur. Yeni faşizm təhlükəsi ilə müvafiq narahatlıq bir-birinə uyğun deyil.

Avropa faşizmin dadını yaxşı bilir, ona böyük qurbanlar verib, ağır məşəqqətlər yaşayıb.

Avropa xalqları Hitler faşizminin iztirablarını unutmayıblar və bunun unudulmaması üçün yüzlərlə muzeylər yaradıb, abidələr tikiblər, kitablar yazıblar, filmlər çəkiblər. Faşizm avropalıların daima lənətlədiyi cərəyandır.

Bununla belə, Fransa və Avstriya kimi neofaşistlərin nisbətən güclü olduğu ölkələr də var və onlar zaman-zaman daha da güclənir, parlamentdə təmsil olunacaq qədər çox səs alırlar, ancaq hakimiyyətə gələ bilmirlər.

15-16 il öncə Avstriyada faşizmi təbliğ edən partiya seçki birincisi olmuşdu, onda da qüdrətli Avropa dövlətləri şiddətli təzyiq göstərərək həmin partiyanın liderini hökumət qurmaq hüququndan imtina etməyə məcbur qoydular.

Fransada Han-Mari Le Penin özü və qızı Mairin Le Pen uzun illərdir ki, siyasətdədirlər, amma böyük uğura imza ata bilmirlər. Bu ailə partiyasının ortalama 15 faiz civarında seçici səsi var. Hazırda Marin Le Pen Fransada keçirilən prezident seçkilərinin əsas şansı namizədlərindən biri hesab olunsa da, fransızların onu dövlət başçısı edəcəyi ağlabatan görünmür.

Ancaq onu da nəzərə almaq lazımdır ki, Avropada faşizmin dirçəlməsinin (hələlik kükrəmədən danışmaq tezdir) ciddi səbəbləri var. Ayrı-ayrı ölkələr (Almaniya, İsveç, Norveç, Hollandiya, Avstriya, Fransa) Afrikadan və Asiyadan gələn milyonlarla qaçqının, siyasi mühacirin və əmək miqrantının axını ilə üz-üzədir. Başqa mədəniyyətə, dünyagörüşə məxsus insanlar pənah apardıqları, sığındıqları ölkələrdə yerli cəmiyyətə uyğunlaşıb inteqrasiya olunmaqdansa, çox zaman özünütəcrid yolu tutur, milli məhəllələrdə yaşayır, öz həyat və düşüncə tərzlərini aborigen avropalılara diktə etməyə çalışırlar.

Bu da əks reaksiya doğurur, gəlmələrə qarşı ictimai narazılığı artırır, nəticədə bu narazılığı süni şəkildə şiddətləndirərək səsə, mandata çevirmək istəyən siyasilər peyda olur.

Gedişat göstərir ki, avropalılar hər halda ağı qaradan seçə, dinindən, milliyyətindən, dərisinin, saçının rəngindən asılı olmayaraq, bədbəxtliklə üzləşmiş, müharibə, siyasi təqibə, humanitar fəlakətə məruz qalmış insanlara mərhəmətlə yanaşa bilir.

Sadəcə, Avropaya axın, köç elə bir miqyasda olmalıdır ki, avropalılar özlərini öz vətənlərində sıxışdırılmış kimi hiss etməsinlər. Elə olsa, görtlər siyasi divident qazana bilməzlər.

# Baş nazir bu gün parlamentdə hesabat verəcək-22 illik dönəm başa çatırmı?

## Xəbərlərə görə, hesabat qəbul olunduqdan az sonra Artur Rəsi-zadə təltif edilməklə fəxri təqaüdə yola salınacaq

**Bu gün Milli Məclisin yaz sessiyasının növbəti iclası olacaq. İclasın əvvəlkindən özəlliyi ondan ibarətdir ki, gündəliyə "Azərbaycan Nazirlər Kabinetinin 2016-cı ildə fəaliyyəti haqqında" hesabatı" daxil edilib. Milli Məclisdə hesabatı baş nazir Artur Rasi-zadənin verəcəyi bildirilir.**

Bəzi iddialara görə, bu, 22 ildir baş nazir vəzifəsini daşıyan 82 yaşlı baş nazirin hökumət adından verəcəyi son hesabat ola bilər. Məlumatlara görə, Azərbaycanda vitse-prezidentlik institutunun yaradılması ilə əlaqədar yaxın aylarda hökumətin strukturunda ciddi dəyişiklik gözlənilir. Bu dəyişiklik nəticəsində Artur Rasi-zadənin vəzifəsi ilə vidalaşacağı haqda deyilənlər də iddialar sırasındadır. Birinci-vitse prezident təyinatından sonra ikinci və üçüncü vitse-prezidentlərin kimlər olacağı, həmçinin yeni baş naziri kimin əvəzləyəcəyi barədə müzakirələr gedir, müxtəlif ehtimallar irəli sürülür. Xüsusilə qeyd edilir ki, Mehriban Əliyevanın birinci vitse-prezident təyinatından sonra yeni iqtisadi komandanın formalaşmasına zərurət yaranıb. Bu isə ikinci və üçüncü vitse-prezidentlərin, həmçinin baş nazirin həmin meyarlara cavab verəcək şəxslər olmasını da zəruri edir.

Yayılan xəbərlərə görə, bu baxımdan 17 mart hesabatı hörmətli Artur Rasi-zadənin baş nazir kimi sonuncu hesabatı ola bilər. Xəbərlərə görə, hesabat qəbul olunduqdan az sonra Artur müəllim təltif edilməklə fəxri təqaüdə yola salınacaq. Rasi-zadənin özünün xahişi-ərizəsi ilə işdən çıxarılacağı da yayılan məlumatlar sırasındadır. Artıq baş nazirin belə bir ərizəni yazdığı da deyilir. Onun yerinə kimin təyin olunacağını isə şübhəsiz ki, ən dəqiq bilən



ölkə prezidentidir. İctimaiyyət arasında və mediada sadəcə ehtimallar irəli sürülür. Məsələn, yayılan xəbərlərdən birində deyilir ki, Azərbaycanın növbəti baş nazirinin hazırkı ədliyyə naziri Fikrət Məmmədov və ya səhiyyə naziri Oqtay Şirəliyev olması istisna deyil. Hər iki şəxs uzun müddətdir nazirdir, siyasi iddiaları ilə seçilən fiqurlar deyillər və onların ikisinin də hakimiyyətin başında dayanan şəxslərə yaxın olduqları məlumdur. Bəzi iddialarda isə yeni baş nazirin Avropa təhsili texnokrat gənc kadrlardan biri olacağı vurğulanır.

İkinci və üçüncü vitse-prezidentlərin də mart ayından sonra təyin ediləcəyi barədə xəbərlər yayılıb. Məlumatlarda deyilir ki, bu vəzifələrə təyinatlarda sürpriz isimlər yer ala bilər.

Vitse-prezident təyinatlarından sonra isə Nazirlər Kabinetinin də yenidən təşkil ediləcəyi yayılan xəbərlər sırasında yer alır. Bu qurumun bir çox funksiyalarının vitse-prezidentlərə ötürüləcəyi gözlənilir. Nazirlər Kabinetindən fərqli olaraq vitse-prezidentlik təsisatının daha çevik institut olacağı və cari idarəetmə ilə məşğul olacağı da bildirilir. Bundan başqa, bir neçə nazirlik və dövlət komitəsinin yenidən təşkili və birləşdirilməsi nəzərdə tutulur ki, bu məsələlər iqtisadi islahatların davamı olaraq həyata keçiriləcək.

Yayılan xəbərlərdə o da deyilir ki, vitse-prezidentlərin təyinatından sonra baş nazir postunun əvvəlki əhəmiyyəti qalmayacaq.

2016-cı il sentyabrın 26-da keçirilmiş referendumdan sonra konstitusiyanın yeni tələbinə uyğun olaraq onsuz da baş nazir postu ölkənin ikinci şəxsi statusunu itirib. İkinci şəxs bundan sonra birinci-vitse prezidentdir.

Birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan prezidenti vəzifəyə təyin və vəzifədən azad edir, növbədənkənar prezident seçkisi zamanı dövlət başçısının səlahiyyətləri birinci vitse-prezidentə keçir.

❑ Etibar SEYİDAĞA

# Ermənistanın müşahidəçi dəvətinə MSK-dan reaksiya

## Mikayil Rəhimov: "Müraciətin arxasında bəzi niyyətlərin dayandığı şübhəsizdir"

**Ermənistanda aprelin 2-də keçiriləcək parlament seçkiləri ilə bağlı müşahidə missiyası göndərmək üçün Azərbaycana da müraciət edilib. Baş nazir Karen Karapetyanın bununla bağlı məktubu bütün MDB-yə üzv ölkələrə göndərilib.**




Bu barədə MDB-nin İcraiyyə Komitəsinin birinci sədr müavini Viktor Quminskiy İrəvanda jurnalistlərə açıqlamasında deyib.

O, "İrəvana Azərbaycandan olan müşahidəçilər də gələcəkmi" sualına belə cavab verib: "Biz bütün ölkələrə dəvət göndərmişik. Ancaq Rusiya, Türkmənistan, Qazaxıstan, Ukrayna və Belarusdan olan 76 müşahidəçi müsbət cavab verib".

Ekspertlər hesab edirlər ki, bu müraciətin arxasında erməni xislətindən doğan niyyətlər dayanır. Yeni ermənilər bununla özlərini dünyaya tolerant, demokratik xalq kimi sırımaq istəyirlər. Amma bununla belə, dövlət maraqları naminə ermənilərin niyyətlərini puça çıxarmaq üçün düşmən dövlətdə 2 aprel seçkilərində ölkəmizdən də nümayəndə heyətinin olmasını məqsədəuyğun sayanlar da var.

**Mərkəzi Seçki Komissiyasının üzvü Mikayıl Rəhimov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycanda keçirilən seçkilərə heç vaxt Ermənistan dəvət olunmayıb:** "Bununla bağlı Mərkəzi Seçki Komissiyasının rəsmi mövqeyi yoxdur. Ermənistan düşmən dövlətdir. Düşmən ölkə ilə hansısa səviyyədə dövlət qurumu olaraq, əlaqə saxlamaq ənənəsi yoxdur. Buna yəqin heç ehtiyac da yoxdur. Bir faktı qeyd edim ki, indiyə qədər ölkəmizdə keçirilən seçkilərin heç birinə nə Ermənistan dəvət olunub, nə də MSK oradakı seçkilərə dəvət alıb. Biz Ermənistanı düşmən ölkə sayırıq, hesab edirik ki, orada cinayətkar rejim mövcuddur. Demokratik seçki mühiti adı altında əlaqələr yaratmaq istəyirlər. Bu, Azərbaycan kimi dövlətə hörmət gətirən əlamət ola bilməz. Ona görə də hansısa əlaqələrin qurulmasını mümkün hesab etmirəm. Bu müraciətin arxasında bəzi niyyətlərin dayandığı şübhəsizdir. Özlərini tolerant, qonşu ölkələrlə normal münasibətlər qurmağa çalışan dövlət kimi göstərməyə çalışırlar. Amma elə bir tarixi cinayət ediblər ki, əraziləri işğala məruz qalan Azərbaycanın əlaqələr qurması mümkünsüzdür. Onların cəhd etmələrinin də heç bir perspektivi yoxdur".

**Politoloq Elxan Şahinoğlu hesab edir ki, işğala son qoyulduğu zaman bu məsələdən danışmaq olar:** "Ermənistanda parlament seçkisini izləmək məqsədilə Azərbaycandan da nümayəndə heyətinin işğalçı ölkəyə getməsi düzgün olmazdı. Azərbaycan rəsmiləri, diplomatları və deputatları İrəvanda keçirilən konfrans və seminarlara getmirlərsə, parlament seçkisini niyə izləməlidirlər? MDB-nin seçkiləri müşahidə missiyası var və bu missiya adətən ATƏT müşahidə missiyasından fərqli olaraq, MDB məkanındakı bütün seçkiləri müsbət qiymətləndirir. MDB-nin müşahidə missiyasında azərbaycanlı deputatların Ermənistandakı parlament seçkisini normal qiymətləndirməsini necə təsəvvür etmək olar? Deputatlarımızın "Ermənistanda seçki normal keçdi" və ya "Serj Sərkisyanın partiyası qanun pozuntusuna yol vermədi" kimi açıqlamalar verməsini təsəvvür etmək olarmı? Ermənistanda seçkinin inzibati resurslar vasitəsilə saxtalaşdırılacağı indidən bəllidir. İrəvan bilə-bilə ki, Azərbaycandan kimsə MDB müşahidə missiyasına qatılmayacaq, belə bir dəvəti bizə də göndəriblər. Bununla özlərini "sülhpərvər" göstərmək istəyirlər. Nə vaxt ki, işğala son qoyular, onlar bizim, biz də onların seçkilərini müşahidə edərik".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 59 (6673) 17 mart 2017

# Son yazısını qanla yazdı: gənc yazar özünü niyə öldürdü?

Dostları Mövludun son vaxtlar depressiyada olduğunu deyiblər; **Kamal Abdulla:** "Yəqin, sənə hansısa sirr agah olmuşdu..."



**Gənc yazar Mövlud Mövlud (Abdullayev) martın 16-da gecə saat 02:00 radələrində intihar edib. Binəqədi Rayon Prokurorluğundan verilən məlumata görə, hadisə martın 16-da gecə saat 02:00 radələrində 7-ci mikrorayonun Axundov küçəsində baş verib. 1989-cu il təvəllüdlü Abdullayev Mövlud İsmayıl oğlu həmin küçədə yerləşən 17 mərtəbəli binanın 17-ci mərtəbəsindən özünü ataraq intihar edib. M.Abdullayev hadisə yerində dünyasını dəyişib.**

Faktla bağlı Binəqədi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılıb.

Gecə saatlarında baş verən hadisəni ilk görən 23 yaşlı gənc mühafizəçi olub. O, binaların həyətində gəzindiyi yerdə qəfil tappıltı eşidib, partlayış zənn edib. Yaxınlaşınca yerə çırpılan insan olduğunu görüb və baxıb ki, keçinib. Qorxuya düşüb, nə etmək lazım olduğunu bilməyib. Yaxınlıqda işləyən yaşlı fəhləyə zəng edib, o gəlincə binadan adamlar tökülüşüb, sonra polisə zəng edilib. Gənc yazarın meyitini təcili yardım maşınına qoyub aparıblar. Mühafizəçi deyib ki, binadan atlamadan öncə əynindəki gödəkçəni çıxarıb, eyvana qoyub. Meyitin yanından 80 qəpik pul, alışqan, bir də qaldığı evin açarını götürüblər. "Mən Mövludun intiharının şahidi olmuşam" Bu sözləri isə kulis.az-a hadisənin başqa bir şahidi deyib.

**Onun sözlərinə görə, gecə blokda siqaret çəkirmiş:** "Birdən tappıltı səsi eşitdim. Qarovulçu sürətlə səs gələn tərəfə qaçdı. Mən də heyrətləndim ki, axı nəyə görə qarovulçu belə təlaşla qaçdı. Mən də qarovulçunun dalınca getdim. Gördüm, yerdə gənc bir oğlan var. Ayağında da ayaqqabısı. Ağzından qan axırdı. Onu heç kim tanımadı. Bizim binada yaşamırdı".

Məlum olub ki, evi özünü atdığı 17-ci mərtəbəyə yaxındır. Kirayə qaldığı evin qapısına kağızlardan kəsilib hazırlanmış iki ürək şəkli yapışdırıb. Dostları lent.az-ın əməkdaşı ilə söhbətində Mövludun son vaxtlar depressiyada olduğunu deyiblər. Onlar son günlərdə Mövludla görüşmək üçün can atsalar da, gənc yazar hər dəfə görüşməkdən imtina edirmiş. Həyat yoldaşı ilə münasibətinin pozulması, Binəqədi rayonundakı bina yanğınında aldığı ağır psixoloji travma onu depressiyaya salıbmış. Bu azmış kimi, yanğında zərərçəkmiş kimi Mövludun və ailəsinin almalı olduğu maddi kompensasiyanın bəzi şəxslər tərəfindən ələ keçirilməsi onda ciddi gərginlik yaradıbmış.

İş yoldaşları bildiriblər ki, Mövlud Mövlud həmişəki kimi ofisdə deyib-gülüb, dostları ilə zarafatlaşıb. Axşam isə kirayə yaşadığı evə gəlib. Gecə saat 01:30 radələrində isə evin yaxınlığında, iş yerinin yerləşdiyi çoxmərtəbəli binaya daxil olan Mövlud sonuncu - 17-ci mərtəbəyə qalxıb və gödəkçəsini çıxararaq, özünü oradan atıb.







Martın 16-da intihar etmiş gənc yazarın cənazəsi morqdan çıxarılıb və dəfn olunmaq üçün doğulduğu Qazax rayonuna aparılıb. Mövlud jurnalist Sevinc Fədai ilə evli idi, onların ailədaxili problemlərə görə boşanma ərəfəsində olduqları deyilir. Cütlük uzun müddət imiş ki, birlikdə yaşamırmış. Onların 2 yaşlı oğlan övladı var. Sevinc Fədai modern.az-a sarsıntı içərisində "məndən heç nə soruşmayın. Heç nə deyə bilmirəm" söyləyib. Bildirilir ki, Mövlud intihar edərkən həyat yoldaşı evdə olmayıb.

**"Teleqraf" saytının rəhbəri Aynur Camalqızı intiharla bağlı öz rəyini yazıb:** "Özümü günahkar sayıram, Mövlud, bütün dünyanı günahkar sayıram... Keşkə, bunu etməyəydin... Keşkə, dözəydin... Kömək istəyəydin... Vallah da, billah da, əlini buraxmazdıq... Bütün ailən sənə diqqətsizlik göstərdi, görməzlikdən gəldilər, qürur duymalıykən sənin kimi bir oğulu taleyin ixtiyarına buraxdılar... Səni öldürdülər! Səni intihara sürükləyən hər şeyə, hər kəsə, mentalitetə, məişətə, hikkəyə, mənəm-mənəmliyə, dikbaşlığa... nifrət edirəm! Keşkə sən sağ olaydın indi, yanımızda olaydın, koridorun başından səsin gələydi, zarafatlarına gülüşən qızların səsi gələydi..."

**Dövlət müşaviri yazıçı Kamal Abdulla da bu intihardan təsirlənib:** "Səninlə adda-budda görüşlərimi xatırlayıram. Heç on yeddi dəfə olmaz. On yeddi cümlə dedikmi bir-birimizə?! On yeddi dəfə baxışlarımız dəydimi bir-birinə?! Bunlar olsa da, olmasa da, önəmli deyil, biz bir-birimizi anlamış idik. Məni anlayan, mənim anladığım kişilərdən biri də azaldı. Mən də bir nəfər qədər az qaldım. Soruşmayacağam ki, niyə belə etdin?! Yəqin sənə hansısa sirr agah olmuşdu və sən onu özünlə göyə uçurub hamıdan gizlətdin.

Bu sirri axtaranlar çox olacaq. Amma onu bilmək kimsəyə müyəssər deyil. Arxanca baxıram və sən hələ də uçursan" deyə, K.Abdulla bildirib.

❑ **"YM"**







# Əbülfəz Elçibəyin adının əbədiləşdirilməsi məsələsi gündəmə gətirildi

Qanunda eks-prezidentlərə abidə qoyulması tələbi varmı?

**Eks-prezident Əbülfəz Elçibəyin adının əbədiləşdirilməsi məsələsi yenidən gündəmə gəlib. Belə ki, Ə.Elçibəyin qardaşı Almurad Əliyev modern.az-a açıqlamasında bildirib ki, bu yaxınlarda bir adam ona Elçibəyin adına küçə də olacağını, prospekt də olacağını deyib. Sadəcə, bir az zaman lazımdır: "İnanıram ki, Elçibəyin adının əbədiləşdirilməsi prosesi uğurla həyata keçiriləcək".**

Almurad Əliyevin sözlərinə görə, Novruz bayramından sonra bir daha Elçibəyin adının əbədiləşdirilməsi işi ilə bağlı müvafiq instansiyalara müraciət edəcək: "Bu proses çox uzanır. Bildiyiniz kimi, bir neçə dəfə müraciət olunub. Amma Dövlət Komissiyası konkret nəsə demir. Novruz bayramından sonra Dövlət Komissiyası ilə bir də əlaqə saxlayacağam".

Qeyd edək ki, "Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında" Qanun bir neçə il öncə qəbul olunub. Müstəqillik dövründə Azərbaycanın 3 keçmiş prezidenti olub: Ayaz Mütəllibov, Əbülfəz Elçibəy və Heydər Əliyev. Sözügedən qanun onların hər üçünə şamil edilib.

1992-ci ildən Rusiyada yaşayan eks-prezident Ayaz Mütəllibov məhz sözügedən qanun qəbul edildikdən sonra Azərbaycana dönüb. Hazırda Ayaz Mütəllibov qanunun eks-prezidentlərə verdiyi imtiyazlardan istifadə edir. Eks-prezident Əbülfəz Elçibəy həyatda olmadığından onun həyat yoldaşı qanunun verdiyi imtiyazlardan yararlanır.

Əbülfəz Elçibəyin adının əbədiləşdirilməsi məsələsinə gəlincə, "Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında" Qanuna görə, keçmiş prezidentə, habelə onun vəfatından sonra xanımına, 18 yaşı tamam olmayan övladına müxtəlif imtiyazlar verildiyi kimi, eks-prezidentlərin adının əbədiləşdirilməsi istiqamətində də addımlar atıla bilər. Qanun bunu qadağan etmir. Lakin qanunda eks-prezidentlərə imtiyazlar verilməsi tələb şəklində qoyulsa da, onların adının əbədiləşdirilməsi tələb olaraq qoyulmayıb.

Sadəcə olaraq, bu təcrübə əksər demokratik dövlətlərdə mövcuddur. Belə ki, bu dövlətlərdə eks-prezidentlərin adlarına mərkəz və ya fondlar yaradılır, universitetlər açılır, küçə və meydanlara onların adları verilir.

Məsələn, qardaş Türkiyədə son 25 ilin eks-prezidentləri Turqut Özalın, Süleyman Dəmirəlin adına universitetlər, dərnəklər, küçələr, elmi mərkəzlər, xəstəxanalar yaradılıb. Bunu dövlət rəsmi qaydada edib.

ABŞ-da hətta seçki vasitəsilə hakimiyyəti uduzan, impiçmentə məruz qalmış eks-prezidentin də-Ricard Niksonun adına mərkəzlər, küçələr var.

Bu vaxta qədər eks-prezident Əbülfəz Elçibəyin adının əbədiləşdirilməsi barədə heç bir rəsmi addım atılmayıb. Vəfatından 17 ilə yaxın zaman keçməsinə baxmayaraq, paytaxt Bakıda, yaxud respublikanın iri şəhərlərindən birində Elçibəyin heykəli, büstü, adına küçə, prospekt verilməyib.

Əbülfəz Elçibəyin müstəqil Azərbaycan tarixində göstərdiyi müstəsna xidmətləri nəzərə alan partiyalar, siyasətçilər təklif ediblər ki, Bakının mərkəzində onun heykəli qoyulsun. Partiyalar arasında Elçibəy haqqında bədii filmin çəkilməsini təklif edənlər də var. Bu cür təklifi verənlər Əbülfəz Elçibəyin Azərbaycanın eks-prezident olmaqla yanaşı, müstəqillik uğrunda xalq hərəkatının lideri olmasını əsas göstərirlər.

**Məsələn, Elçibəyin silahdaşlarından olan deputat Fərəc Quliyev də Milli Məclisin plenar iclaslarından birində Elçibəyin adının əbədiləşdirilməsini təklif etmişdi. Bununla bağlı hökumətə rəsmi müraciət də edib. F.Quliyev "Yeni Müsavat"a açıqlamasında bu müraciəti xatırladıb. Onun sözlərinə görə, müraciətdə konkret təkliflər də irəli sürülüb:** "Təkliflər sırasında eks-prezidentin kitabxanasının, ev muzeyinin yaradılması, adına küçə verilməsi, heykəlinin qoyulması və digərləri var. Əbülfəz Elçibəy də eks-prezident olmaqla yanaşı, milli azadlıq hərəkatının lideri olub. Elçibəy böyük demokrat və dövlət xadimi idi. Bu və digər xidmətlərinə görə haqqıdır ki, onun adı əbədiləşdirilsin. Ölkədə siyasi mədəniyyətin inkişafına imkan yaradılmalı, onun adının əbədiləşdirilməsi üçün işlər görülməlidir".

❑ **Etibar SEYİDAĞA**



# Banal top oğrusu

Zamin HACI
zaminhaci@gmail.com

**Ölkəmizdə təhsil elə kökə salınıb ki, inanın, insanlar artıq elementar elmi biliklərdən məhrumdur. Bir dəfə hamamda dişimi sürtdüyüm yerdə gördüm yuxarıdakı nəfəslikdən duru sement qarışığı tökülür. Çıxıram yuxarı qata, qonşunun qapısını döyürəm. Baxıram hamamını təmir edir və nəfəsliyi kamali-ədəblə doldurmaqdadır. Deyirəm, adə, dəli olmusan, nə edirsən, bizi boğmaq məqsədin var? And içdi ki, ilk dəfədir çoxqatlı binaların tüstü və ventilyasiya xətlərinin binanın divarının içiylə qalxdığını öyrənir. Zənn edirmiş bu oyuqlar tikinti səhvidir.**

Çoxqatlı binaların 15 metr radiusunda hər hansı tikinti olmaz. Bizdə isə axmaq icra hakimi, JEK-mek hər debilə ev yeri kimi satır o əraziləri. Adı paytaxt şəhəridir, ancaq qoxqatlı binaların qarnına-qoynuna doldurulan qanunsuz tikililərə baxanda kənd saymaq olar.

Bir dostumuz deyir qohumu yüksək gərginlikli elektrik xəttinin altında ev tikib, mənzildə uğultudan dayanmaq olmur. Qohum deyirmiş xətt qırılmırsa ziyanı yoxdur. İndi buna elektrik sahəsindən, onun insan sağlamlığına qorxunc zərərlərindən danışsan səni dəli sayar. Sahə görünmür axı! Nə olsun uğuldayır? Boş şeydir. Hər səsə fikir vermə, əşşi...

Bir 9 qatlı yaşayış binasında isə saxlayıcı divarın yarısını sökmüşdülər. Hələ də fikirləşirəm, görəsən, adamlar orda necə yaşayır?

Kasıbçılığın üstünə savadsızlığı gəl. Bərabərdir faciə. Adi faciə. Hanna Arendtin faşizm haqda yazdığı kitabın adı kimi: "Şərin banallığı". Banal - yəni çox adi, orijinal olmayan. Xüsusi bir səbəbdən törənməyən. Sözgəlişi, "banal" sözünün kökü fransızcadan gəlirmiş, "ban" - qovmaq, rədd etmək anlamını verirmiş. Kimisə ban etmək - belə ifadə də var. Qədim fransız məhkəmə leksikonunda kimisə ban etmək tamamilə hüquqdan məhrum etmək anlamını verirmiş. Faciələrimizin adiləşməsi də elə bizim cəmiyyət olaraq ban edilməyimizdir. Bir-birimizi təcrid etməyimizin nəticəsidir. Dilin belə gizli mənaları olur, misal üçün, qədim yunanlarda "idiot" seçkilərə getməyən, cəmiyyətin həyatına qarışmayan, laqeyd adamlara deyirdilər və bizim indi başa düşdüyümüz mənadan çox uzaq söz idi.

Nə isə. Bu həftə həmin "adi faciə" üzündən 5 qadın öldü. Ondan qabaq da avtobus qəzasında 6 tələbə öldü. Daha öncə 5 afrikalı futbolçu dəm qazından boğuldu. Eşitdiyimə görə, o yazıq zəncilərin bəzilərinin meyitləri hələ də Bakıda saxlanır. Qohumları o dərəcədə imkansızdır ki, gəlib apara bilmirlər. Böyük ehtimal o afrikalı nakam gəncləri axırda Hövsanda, ya da Qurd qapısı tərəfdəki yiyəsizlər məzarlığında basdıracaqlar. Əcaib taledir - Afrika savannalarında doğulasan, Abşeron səhrasında dəfn ediləsən. Bir də ki, öləndən sonra nə fərqi? Heç yadımdan çıxmır, bir dəfə hansısa ekzotik Şərq ölkəsindən qayıdan yaşlı danimarkalının uçaqda ürəyi tutmuşdu. Bakı hava limanında təcili eniş, Sabunçu xəstəxanasına çatdırılma onun həyatını xilas etməmişdi. Sonra həmin danimarkalının qohumları da vətəndən mesaj göndərmişdi: "Oralarda harda istəsəniz basdırın".

İnsan küləyin apardığı quş lələyi kimi yaşayır, havada uçarkən bir çox şeyləri ciddiyə almaq lazım deyil. Budda demişkən, bir yolun ki, əvvəli və sonu naməlumdur, ortası da bizdən asılı deyil, dərd çəkməyin mənası nədir? Ancaq özümüzdən sonrakıları müəyyən lənətlərdən qorumaq öz əlimizdədir.

Başa düşürəm, iqtisadi durum ağırdır, böhrandır, ancaq uşaqların topunu oğurlamaq nə deməkdir? Bir tanış var, uşağına aldığı 4 topu son iki ayda oğurlayıblar. Şikayətlənir, deyir, özü də oğurlayanlar böyük adamlardır: "Bir dəfə uşaq həyətdə oynayanda orta yaşlı qadın topu götürüb çıxıb gedib. Təzəlikcə isə məktəbin girişində oynayırmışlar, bir valideyn gəlib, balaca oğlu ilə, topu götürüb öz uşağına verib, dərhal maşına minib gediblər. İndi uşağa deyirəm ki, bəlkə imkanları yoxdur, eyib etməz, mən sənə təzə top alaram, uşaq isə deyir, ata, axı maşınları var idi!" Uşaq bu ölkədə əsl, həyasız oğruların elə imkanlı adamlardan ibarət olduğu haqda ilk dərsini almışdır - məktəbin girişində. Necə deyərlər, həyat ağ-qara deyil, müsbət şeyləri də görməliyik. Biz də bu oğurluqdan müsbət şeylər öyrəndik.

Hərçənd o axmaq valideynin ucbatından bəlkə bir insanın gələcəyi məhv edildi, uşaq oğurluğun adi, banal bir şey olmasını öyrəndi.

# Müxalifət "yaz hücumu" taktikasından imtina edib

## Əli Əliyev: "Bizim "hücum" kimi bayağı epitetlərlə zəngin şüarçılıq etmək niyyətimiz yoxdur"



**Bir zamanlar Azərbaycanda siyasi leksikonda "müxalifətin yaz hücumu" adlanan məşhur termin var idi. Yaz öncəsi bu məsələ aktuallaşırdı və bəlli olurdu ki, həqiqətən də müxalifət partiyalarının hakimiyyətə qarşı "yaz hücumu" planı var və adətən yaz aylarında etiraz aksiyaları keçirilirdi. Son zamanlar isə müxalifət bu taktikanı sanki kənara qoymuş kimi görünür. Heç bir yaz hücumu planı, aktivləşmək üçün hansısa plan ortada görünmür. Müxalifətin nədən əvvəlki kimi "yaz hücumu" planının olmadığı barədə 15-ə yaxın müxalif partiyanın təmsil olunduğu müxalifət birliyinin üzvü olan Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyevlə danışdıq.**

**Əli Əliyev** bildirdi ki, siyasətdə dövriliyin tələbi yanlışdır. Siyasət cəmiyyətlə əlaqəli olduğundan şərtlər daim dəyişir: "Sizin xatırlatdığınız o dövrlərdən vəziyyət xeyli fərqlidir. Bir də ki, əgər deklorativ taktika özünü doğrultmayıbsa, deməli, yeni yollar axtarılmalıdır.

Əvvəllər mövsümi "hücum"ların bir neçə səbəbi var idi. Yaz təbiətin oyanma dövrüdür. Bioloji olaraq fəallaşma mərhələsi məhz yaz mövsümünə təsadüf edir. Xalq arasında buna "qanın qaynayan vaxtı" deyilir. Müxalifətin bu fizioloji prosesi düzgün qiymətləndirdiyi qənaətindəyəm. Kütləvi tədbirlər üçün də bahar ayları temperatur uyğunluğu ilə seçilir. Daha bir səbəbi də yaz fəallaşmasına aid etmək olar. Novruz xərcləri ilə yanaşı yaz mövsümü, bazar bahalığının da son ayları, müvafiq olaraq, sosial gərginliyin yüksək olduğu dövr kimi xarakterizə olunur. Keçmişdəki müxalifət fəallaşmasının səbəbləri sırasında "hücum" amili kimi bunları görürəm. Göründüyü kimi, sadalananlar cəmiyyətlə siyasi qüvvələrin simbiozunda uğur gətirə bilərdi. O dövrün buraxılan səhvləri nəticəsizliyin nədəni olmuşdur. Son illər siyasi müxalifətlə cəmiyyətin arasında müvəqqəti sədd çəkmiş iqtidar və neft pulları obyektiv proseslərdən yararlanmaq imkanını məhdudlaşdırmışdır".

**Partiya sədri vurğuladı ki, artıq siyasi mərhələ dəyişib. Neft pullarının tükənməsi, iqtidardaxili münasibətlərin qızışması, beynəlxalq şərtlər yenidən cəmiyyətin oyanışına və narazıdan etirazçıya çevrilməsinə təkan verəcək:** "Hakimiyyətdaxili təyinatları da yeni dövrün tələbi saymaq olar. Mehriban Əliyevanın fəal şəkildə siyasi administrasiyaya cəlbi, iqtidar imicinin və idarəçilik şərtlərinin dəyişiklik istəyi kimi qavranılmalıdır. Bu istək də siyasi fəallaşmanı şərtləndirəcək. Əminəm ki, müxalifət də cəmiyyətdə baş verənlərdən "özünə gələcək".

Bizim nəslin "hücum" kimi bayağı epitetlərlə zəngin şüarçılıq etmək niyyətimiz yoxdur. İstəyimiz ağrısız hakimiyyət dəyişikliyi etmək, ölkəni gözləyən təhlükələri ötüşdürmək və keyfiyyətcə fərqli iqtidara sahiblənməkdir. Ola bilər cəmiyyət tərəfimizdən səsləndirilən şüarlara şahidlik etməsin, lakin mövcud iqtidarın yola salınması üçün rasional addımlarımızın şahidi hamı olacaq".

❑ **E.SEYİDAĞA**

# "Türk cümhuriyyətləri türk-İslam birliyinə söykənən ev yaratmalıdır"

## Fərəc Quliyev: "Avropada artıq mərkəzdənqaçma prosesləri başlayıb"

**Almaniyanın Köln şəhərində qondarma "erməni soyqırımı"na abidənin qoyulması planlaşdırılır. Hansı ki, bəzi siyasilər bunu Almaniyanın Türkiyəyə süni şəkildə təzyiq göstərmək cəhdi kimi xarakterizə edir.**

Məsələ ilə bağlı moderator.az-a açıqlama verən **deputat Fərəc Quliyev** sayt vasitəsi ilə Almaniyanın ölkəmizdəki səfirliyinə müraciət edərək onları olmayan erməni soyqırımına deyil, faşist Almaniyasının törətdiyi yəhudi soyqırımına abidə qoymağa çağırıb: "Almaniya səfirliyinə təklif edirəm ki, orada qondarma erməni soyqırımına abidə qoymaqdansa, İkinci Dünya müharibəsində qırdıqları yəhudilərə abidə qoysunlar. Soyqırıma məruz qalan yəhudi xalqına soyqırım abidəsi ucaltsınlar. Biz də bilək ki, onlar insanlığa hörmətlə yanaşırlar, habelə o dönəmdəki alman hökumətinin bu qırğınlara görə məsuliyyət daşıdığını etiraf edirlər. Bu çox mühüm məsələdir.



Almaniya türklərə qarşı həmişə neqativ münasibət bəsləyib. Ötən illərdə sığınacaqlarda xeyli türkün yandırılması məsələsi yəqin ki, hamının yadındadır. Militaristlərin, ultra-millətçilərin türklərə qarşı atdığı addımlar da göz qabağındadır. Ikili vətəndaşlıqlarının olmasına baxmayaraq, türkləri Almaniyada icmalar şəklində yaşamağa sövq edirlər və onları cəmiyyətə inteqrasiya olunmağa qoymurlar.

A.Merkelin bir məşhur çıxışı da olmuşdu. Bütün Avropa Türkiyəni Avropa Birliyində görmək istədiyi zaman Merkel dedi ki, Avropa evi bir xristian klubudur və biz Türkiyəni orada görmək istəmirik. Bu adam faşist təfəkkürlü bir şəxsdir və dini baxımdan da rahatsızlığı var.

Mən demişəm və bir daha təkrar edirəm ki, türk cümhuriyyətləri Azərbaycan və Türkiyə də daxil olmaqla, türk-İslam birliyinə, fəlsəfəsinə söykənən bir ev yaratmalıdır. Biz Avropanın qapısını döyməkdən çəkinməliyik. Onsuz da Avropada artıq mərkəzdənqaçma prosesləri başlayıb və özlərinin də vəziyyəti kifayət qədər pisdir".

# "Azərbaycanda başqa bir siyasi qüvvə hakimiyyətdə olsaydı..."

## Şahin Cəfərli: "Türkiyə ilə bağlı istənilən məsələdə rəsmi Ankaranın mövqeyinə verilən dəstəyi təbii qarşılamaq lazımdır"

**Hollandiya və Türkiyə arasında münasibətlərin gərginləşməsi ölkəmizdə də əsas müzakirə olunan məsələyə çevrilib. Bir sıra millət vəkilləri və partiya funksionerləri Türkiyənin tərəfini saxlayaraq Hollandiyanın addımını qınayıb.**



**Politoloq Şahin Cəfərli** moderator.az-a açıqlamasında məsələyə münasibət bildirib: "Ölkəmizdə Türkiyə-Hollandiya münasibətlərində yaranmış gərginliklə əlaqəli reaksiyalar Azərbaycan-Türkiyə münasibətlərinin xarakterindən irəli gəlir. İki ölkə arasındakı yaxınlıq barədə uzun-uzadı danışmağa ehtiyac yoxdur, bunu hər kəs bilir. Rəsmi şəxslərin, deputatların, əksər ictimaiyyət nümayəndələrinin məsələyə münasibətinin kökündə məhz bu amil dayanır. Türkiyə bizi bütün beynəlxalq platformalarda dəstəkləyir, Azərbaycanın gerçək anlamda strateji tərəfdaş, hətta müttəfiq adlandıra biləcəyi yeganə dövlətdir. Bu səbəblə Azərbaycanda Türkiyə ilə bağlı istənilən məsələdə rəsmi Ankaranın mövqeyinə verilən dəstəyi təbii qarşılamaq lazımdır. Bununla bir növ, Türkiyəyə öz borcumuzu ödəmiş və qardaşlığımızı nümayiş etdirmiş oluruq. Yəni əksəriyyət üçün hadisənin mahiyyəti önəm kəsb etmir. Azərbaycanda başqa bir siyasi qüvvə hakimiyyətdə olsaydı, böyük ehtimalla həmin qüvvə də belə mövqe tutacaqdı. Bu, "bir millət, iki dövlət" anlayışından irəli gələn bir məsələdir.

## Rusiya baş diplomatından ilginc anons

**Ermənistan prezidenti Serj Sərkisyanın Moskva səfəri başa çatıb. Dünən - səfərin ikinci günü o, Rusiya baş naziri Dmitri Medvedyevlə də görüşə bilib. Bu da o deməkdir ki, işğalçı ölkə başçısının Moskva ziyarəti təkcə siyasi mövzularla, o sırada 2 aprel seçkiləri və Dağlıq Qarabağ problemi ilə deyil, həm də və daha çox, iqtisadi məsələlərlə ilgili olub.**




# Kreml Ermənistana Türkiyədən qapı açmaq istəyir - Ankara və Bakıya Avrasiya tələsi

### Gürcüstan yolunun qapalı qalması işğalçı ölkənin blokadasını ilbəil ağırlaşdırır; Rusiya öz satellitinə çıxış yolu axtarışında; Türkiyə Avrasiya İqtisadi Birliyinə qoşularsa, təcavüzkarın blokadası yarıla bilər, ancaq...; Sərkisyanın Moskva səfərinin daha bir pərdəarxası...

Söhbət öncəliklə Ermənistanın ildən-ilə ağırlaşan iqtisadi izolyasiya durumunu hansısa şəkildə yumşaltmaqdan, Azərbaycan və Türkiyənin Qarabağa görə tətbiq etdiyi kommunikasiya blokadasını yarmaqdan gedir. Bəllidir ki, ötən ayın sonlarında Ermənistanın baş naziri Karen Karapetyanın Gürcüstana etdiyi iki günlük səfərin əsas məqsədlərindən biri 16 ilə yaxındır işləməyən Moskva-Suxumi-Tiflis-İrəvan dəmir yolunu açmaqla bağlı olub. Lakin danışıq konfidensial olsa da, sızan məlumatlara görə, erməni baş nazir bəzi ikinci dərəcəli anlaşmaların imzalanmasına rəğmən, Gürcüstandan əliboş qayıdıb.

Bu da gözlənilən idi. Çünki adıçəkilən dəmir yolunun işə salınması təkcə Gürcüstandan asılı məsələ deyil. Bundan ötrü gərək rəsmi Tiflis strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərində olduğu Azərbaycan və Türkiyənin də razılığını ala. Azərbaycan torpaqları işğal altında qala-qala, belə bir razılığın verilməsi isə istisnadır.

Ermənistanı təlaşlandıran həm də ondan yan keçəcək Bakı-Tiflis-Qars dəmir yolunun artıq işə düşmək üzrə olmasıdır. O halda təcavüzkarın iqtisadi izolyasiyası bir qədər də güclənmiş olacaq. Odur ki, İrəvan başına başqa çarə tapmaq zorundadır. Bu yöndə onun güvəndiyi yeganə himayəçi isə Rusiya ola bilər.

Şəksiz ki, Sərkisyanın Moskva səfərinin gündəliyində iqtisadi blokada ilə bağlı məsələlər mühüm yer tutub. Ancaq erməni qaynaqlarının da yaydığı xəbərlərdən belə qənaət hasil olur ki, Rusiya bu yöndə İrəvana təsəlliverici hər hansı söz deməyib, vəd verməyib.

***

Bu arada Rusiyanın xarici işlər naziri Sergey Lavrov mövzuya dəxli olan maraqlı açıqlama verib. Belə k, Rusiya baş diplomatı Dağlıq Qarabağa görə on illərdir qapalı qalan türk-erməni sərhədindən danışıb. Musavat.com-un məlumatına görə, “Regioanal Post - Caucasus” jurnalına müsahibəsində Lavrov deyib ki, Moskva Türkiyə ilə Ermənistan arasında danışıqlara yardımçı olmağa hazırdır və belə danışıqları yalnız alqışlayardı. Onun sözlərinə görə, “2007-2009-cu illərdə (Sürix protokollarının da gündəmdə olduğu aktiv dövr-red.) Ankara ilə İrəvan arasında əlaqələrin donunun açılması üçün mühüm səylər göstərib, lakin az sonra normallaşma prosesi dayanıb”.

“Lakin prinsipial mühüm olanı odur ki, tərəflər anlaşmaq bacarığı, ciddi və məsuliyyətli qərarlar qəbul etmək qabiliyyəti nümayiş etdirsinlər. Əminəm ki, həm Ermənistan, həm də Türkiyə aradakı problemləri yoluna qoymaq iqtidarındadır. Bu zaman onların özlərindən çox şey asılıdır. Nə vaxt ki, İrəvan və Ankara danışıqlar masası arxasında oturacaq, o zaman Rusiya onlara ən fəal dəstəyi verəcək”, - deyə S.Lavrov Rusiya adından vəd verib.

**Rusiya XİN başçısının aşağıdakı fikri isə bizcə, daha diqqətçəkicidir. Sitat:** “Aydındır ki, biz Avrasiya İqtisadi Birliyinin erməni-türk hissəsinin açılmasını, insanlar, mal- xidmətlərin sərbəst hərəkəti üçün açılmasını yalnız alqışlayardıq. Bu, şəksiz ki, ümumi regionun faydasına işləyəcək”.

***

Dünya okeanına heç bir çıxışı olmayan, Rusiya ilə quru sərhəddən məhrum Ermənistanın iqtisadi xilası sözsüz ki, ya Azərbaycanla, ya da Türkiyə ilə sərhədin açılmasından keçir. Gürcüstan birmənalı qərbyönlü siyasət yürütdüyü üçün bu xüsusda önəmli və aktual deyil. Həm də Ermənistanın xarici aləmə çıxışı daha çox Azərbaycan və Türkiyə hesabına mümkün sayılır.

Erməni toplumunda isə belə bir rəy get-gedə qətiləşməkdədir ki, ölkənin ağır iqtisadi duruma düşməsində Rusiya ilə müttəfiqlik əlaqələri də mühüm rol oynayır. Bu isə işğalçı ölkədə rəsmi Kremlə qarşı artan ictimai narazılıq deməkdir. Belə bir narazılığın “qırmızı xətti” keçməməsindən ötrü Moskva nə(lər)sə etmək zorundadır - bir şərtlə ki, Kremlin bölgədəki köklü maraqları zədə almasın.

Ehtimal ki, Azərbaycanla yanaşı, Türkiyəni də Avrasiya Birliyinə qoşmaqla bağlı ara-sıra səslənən fikir-təkliflərin arxasında həm də bu hədəf durur: qardaş ölkəni Qərb iqtisadi-siyasi və təhlükəsizlik məkanından qoparıb Ermənistanın da daxil olduğu Avrasiya Birliyi məkanına çəkmək və ardınca bu məkan çərçivəsində öz geosiyasi maraqlarını təmin eləmək, paralel surətdə işğalçı ölkədə anti-Rusiya ovqatını səngitmək. Yəni “bir gülləyə bir neçə dovşan vurmaq”, o cümlədən işğalçı ölkəyə Türkiyədən qapı açmaq.

Lakin Türkiyə qeyd-şərtsiz, Azərbaycanın köklü maraqlarını ciddiyə almadan buna gedərmi, Kremlin Avrasiya tələsinə düşərmi? Cavab aydındır. O zaman yalnız bir yol qalır. Onu da ABŞ-ın Ermənistandakı səfiri Riçard Mayls az öncə İrəvanda belə ifadə eləmişdi: “Qarabağ problemi çözülmədən, sərhədlər açılmadan Ermənistanın iqtisadi inkişafı mümkün deyil”.

Maraqlıdır ki, Sərkisyandan cəmi bir həftə öncə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Moskvada olub. İstisna deyil ki, Putin-Ərdoğan görüşündə bu və digər məsələlər də müzakirə predmeti olub.

❑ **Siyasət şöbəsi**

# Xankəndi qumarbazını Kreml üçün vazkeçilməz edən səbəb



### Sərkisyana Rusiyadan 2 aprel dəstəyinin sirri; **Elçin Mirzəbəyli:** “Moskva Dağlıq Qarabağı “kökə” kimi əlində saxlayıb”

**Rusiya hökumətinin Ermənistanda keçiriləcək 2 aprel parlament seçkiləri öncəsi hazırkı prezident Serj Sərkisyana açıq dəstəyi bir daha özünü büruzə verdi. Erməni rəhbərin Rusiya səfəri bir çox suallara aydınlıq gətirdi. O, şimal qonşumuz olan ölkədə prezident Vladimir Putin və baş nazir Dmitri Medvedyev tərəfindən ən yüksək səviyyədə qarşılandı.**

Ermənistan prezidentinin Rusiya səfərinin əsl səbəbləri gizlədilsə də, ziyarətin dövlətlərarası əməkdaşlıqla bağlı olduğu deyilsə də, əksəriyyəti əsl niyyətin parlament seçkiləri olduğunu düşünür. Əgər bu səfərə qədər Kremlin sabiq prezident Levon Ter-Petrosyana da dəstək verə biləcəyi ilə bağlı fikirlər dolaşırdısa, artıq Sərkisyanın havadarının köməyi ilə 2 aprel seçkilərinin indidən müqəddəratını həll etdiyi deyilir.

Sərkisyan hökumətinə Putin Rusiyasının etimadının azalmaması ilə bağlı bir sıra fikirlər var. Onun Dağlıq Qarabağla bağlı siyasətinin rəsmi Moskvanı qane etdiyi üçün rəqibi Levon Ter-Petrosyan üzərində indidən ciddi üstünlük əldə etdiyi vurğulanır. Səbəb kimi də vaxtilə Ter-Petrosyanın məhz Qarabağla bağlı atdığı bəzi addımların hakimiyyətdən gedişi ilə nəticələnməsi göstərilir.

Digər tərəfdən, sabiq prezidentin uğur qazanacağı halda Ermənistanda Qərb meyllərinin artma ehtimalı önə çəkilir. Çünki zamanında hakimiyyətdən gedişinə səbəbin Kreml olduğunu Ter-Petrosyan bilməmiş deyil və bu sarıdan Rusiyaya indidən arxalanmayacağı ehtimalı yüksəkdir.


Elçin Mirzəbəyli

Rəsmi Moskva isə heç şübhəsiz himayəsində bəslədiyi bir ölkənin bu siyasəti ilə heç zaman barışa bilməz. Bu baxımdan, Putinin indidən ehtiyatı əldən vermədiyi və 2 aprellə bağlı tədbirli tərpəndiyi qeyd olunur.

**Politoloq Elçin Mirzəbəyli Sərkisyanı Rusiya üçün vazkeçilməz edən amilləri bu cür sadaladı:** “Kremlin Sərkisyana dəstək verəcəyi gözlənilən idi. Çünki indikindən daha ağır şərtlər altında hakimiyyətdə qalmaq, yaxud hakimiyyəti bir formadan başqa formaya transformasiya etmək istəyən və bunun üçün yalvaran 2-ci bir adam yox idi. Amma bununla yanaşı, Moskva Sərkisyanı nəzarətdə saxlamaq və şərtlərini diktə etmək üçün alternativ variantlar yaratmağı da unutmadı. Öncə əks düşərgədən Ter-Petrosyan xətti işə salındı. Sonra isə Sərkisyanın bütün manevr imkanlarının məhdudlaşdırılması üçün onun öz komandasının içindən Ohanyan xətti işə düşdü. Bütün bunlar Rusiyanın postsovet məkanında tətbiq etdiyi ənənəvi ssenarilərə tamamilə uyğundur. Sərkisyanı vazkeçilməz edən isə onun cinayətləri, ona qarşı təzyiq və təhdid mexanizmlərinin say çoxluğudur. O, Kremlin Cənubi Qafqazı nəzarətdə saxlamaq üçün gerçəkləşdirdiyi qanlı layihələrin icraçılarından biridir. Bu, onun idarə olunmasını asanlaşdırır. Ola bilsin ki, bu amil də Moskvanın seçimində rol oynayıb. Rusiyanın Ter-Petrosyanı seçə biləcəyi bir o qədər də inandırıcı deyildi. Moskva ən pis halda Sərkisyanla Ohanyan arasında seçim edə bilərdi. Çünki Dağlıq Qarabağ amili Moskva üçün Ermənistanın nəzarətdə saxlanılmasında prioritet təşkil edir. Əks təqdirdə, heç bir resursu olmayan ac-yalavac ölkənin ”kökə"sini artırmaq lazım gələcək. İndiki halda isə Moskva Dağlıq Qarabağı “kökə” kimi əlində saxlayıb. Ermənistana göstərir, ümid verir, müharibə təhlükəsi isə daim zopa kimi Ermənistanın başının üstündə dayanıb. Bu, həm iqtisadi, həm də siyasi baxımdan Rusiya üçün daha sərfəlidir".

**Politoloq Ermənistanda Rusiya əleyhinə olacaq bir qüvvənin olmadığını da qeyd etdi:** “Ermənistanda indiki halda Rusiyaya başağrısı ola biləcək siyasi qüvvə yoxdur. Bu ölkənin müxalifəti də, iqtidarı da Rusiyanın işarəsi ilə hərəkət edir. Heç şübhəsiz ki, əsas amil seçkilər olub. Danışıqların nəticəsi isə aprelin 2-dən sonra bəlli olacaq. Əslində Sərkisyan Moskva ilə şərtlərlə danışa biləcək gücə malik siyasi fiqur da deyil. Dəstək almaq üçün danışıqlar aparmalı və məqbul şərtlər irəli sürməlisən. Sərkisyan ən yaxşı halda nədənsə gileylənə, incidiyini büruzə verə bilər. Qənaətimə görə, o, Moskvaya hakimiyyət üçün hər şeyə hazır olduğunu bir daha bəyan etmək üçün getmişdi. Müzakirə predmeti olduğu bildirilən digər məsələlər isə sadəcə görüntü xarakteri daşıyırdı. Çünki Rusiya-Ermənistan münasibətlərində ”müzakirə" adlanan prosesin adı əslində təlimatdır. Sərkisyan da təlimatını aldı, nəticəsini aprelin 2-dən sonra görəcəyik".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 58 (6673) 17 mart 2017

# Türklərin yaratdığı partiya Hollandiya parlamentində

## İrqçi partiya ali qanunverici orqana seçkilərdə birinci ola bilmədi...

**Hollandiyada martın 15-də keçirilən parlament seçkilərinin nəticələri bəlli olub. Baş nazir Mark Ryuttenin başçılıq elədiyi Azadlıq və Demokratiya Uğrunda Xalq Partiyası (VVD) parlamentdə 33 millət vəkili ilə təmsil olunacaq. İslama və əcnəbilərə düşmən münasibəti ilə seçilən Vildersin lideri olduğu ultra sağ Azadlıq Partiyası (PVV) isə seçkilərdə ikinci nəticəni göstərib.**

Deputat sayını artırmağa görə Yaşıl Sol Partiyası üçün seçki uğurlu sayıla bilər. Bu partiya millət vəkillərinin sayını 4-dən 14-də çıxarmağı bacarıb. Bu partiyanın rəhbəri mərakeşli ata və indoneziyalı ananın övladı Jesse Klaverindir. Seçkilərin nəticələrinə görə, azı 4 partiyadan ibarət koalisiya hökumətinin qurulması gözlənilir. Hollandiya parlamentinin aşağı palatası dörd illik müddətə seçilir və 150 yerdən ibarətdir. Ölkə hökuməti parlament çoxluğu əsasında formalaşdırılır.





Son günlər Hollandiya hökuməti ilə problemlər yaşayan türklər üçün də seçkinin nəticələri müsbət mənada sürpriz olub. Belə ki, Hollandiyada yaşayan türklərin 2 il öncə qurduğu DENK Partiyası parlamentə düşə bilib. Parlamentdə 3 yer qazanmaqla bu partiya yarandığı qısa müddətdə böyük uğura imza atmış olub və Türkiyədə, eləcə də bütün türklər arasında böyük sevinclə qarşılanıb.

Bu partiyanı Hollandiya Leyboristlər Partiyası üzvlüyündən çıxarılan türk deputatlar Tunahan Kuzu və Səlcuq Öztürk qurub. DENK Partiyası 2015-ci il fevralın 9-da təsis edilib. Bu siyasi təşkilat daha çox krallıqdakı etnik azlıqların haqlarını müdafiə edir.

Tunahan Kuzu və Səlcuq Öztürk 2014-cü il noyabrın 14-də Leyborist Partiyasının inteqrasiya siyasətinə səs vermədikləri üçün təşkilatdan çıxarılıblar. Noyabrın 15-də türk millət vəkilləri partiyanın siyasətinin daha da sərtləşdiyini və ifrat sağ meyllləndiyini bəyan edərək, bu prosesə qarşı yeni bir hərəkat quracaqlarını bəyan ediblər. Flamand dilində "DENK" sözünün mənası "Düşün" deməkdir.

Tunahan Kuzu seçkidən sonra ilk açıqlamasında "Səlcuq Öztürk ilə partiya qurduğumuzda xəyalımız vardı və biz bunu indi gerçəkləşdirdik. Yabancı kökənlilər birlik olaraq bu başarıyı əldə etdik. Hollandiyada artan irqçilik və İslamofobiyaya qarşı ən gözəl cavabı oylarınızla verdiniz. Hollandiya hamımızındır", - deyə hər kəsə təşəkkür edib.

Avropada heç bir zaman yabançı kökənlilərdən ibarət bir partiyanın seçkilərə qatılmadığını ifadə edən Kuzu "Biz bu insanların səsini duyurmaq üçün var olacağıq. Bu gün hamımız birlikdə tarix yazdıq" bəyanatını verib.

Siyasi ekspertlərə görə, Hollandiyada keçirilmiş seçkidə irqçi Vildersin Partiyasının birinciliyi qazana bilməməsi müsbət haldır. Sistem partiyaları qalib gəlib. Bu hadisə Avropada radikal sağ və populist dalğanın qarşısının alınması, ənənəvi liberal düzənin qorunması baxımından önəmlidir.

T.Kuzu 1981-ci ildə İstanbulda doğulub. Kiçik yaşlarında Hollandiyanın Maassluis şəhərinə köçüb və orada böyüyüb. 2001-ci ildən 2006-cı ilə qədər Erasmus Universitetində idarəetmə ixtisasına yiyələnib. 2008-ci ildə Hollandiyanın İşçi Partiyası millət vəkili olaraq Rotterdam bələdiyyəsinin məclisinə seçilib. 2012-ci ilə qədər bu vəzifədə olan Kuzu 2012-ci ildə yenə İşçi Partiyasının deputatı olaraq Hollandiya Parlamentinə seçilib. 13 noyabr 2014-cü ildə eyni partiyadan millət vəkili olan Səlcuk Öztürk ilə birlikdə partiyadan xaric ediliblər. 2015-ci ilin 9 fevralında DENK Partiyasını təsis ediblər.

Səlçuq Öztürk isə 8 aprel 1978-ci ildə Ankaranın Şərəflikoçhisar bölgəsinin Büyükkışla qəsəbəsində doğulub. Kiçik yaşlarından Hollandiyaya köçüb və orada böyüyüb. 1998-ci ildə Hollandiyanın İşçi Partiyasında millət vəkili olaraq Roermond bələdiyyəsinin Məclisinə seçilib. Öztürk eyni zamanda 2011 və 2012-ci illərdə Limburg vilayətinin Məclisində millət vəkili olub. 2012-ci ildə isə yenə İşçi Partiyasının millət vəkili olaraq Hollandiya parlamentində təmsil olunub.

**Etibar SEYİDAĞA**



## Rus ekspert: "Lukaşenko devriləcək"

**"Artıq 25 ildir ki, Aleksandr Lukaşenko Kremllə oyun oynayır". Axar.az xəbər verir ki, bunu "Obozrevatel" saytına açıqlamasında rusiyalı politoloq Andrey Piontkovski söyləyib. O, Belarus prezidentinin hazırda təhlükə qarşısında olduğunu bildirib: "Moskva və Minsk arasında çətin münasibətlər 25 ildir davam edir. Yeltsin dövründə Kreml Lukaşenkoya dövlət çevrilişi etməyə kömək edib. Moskva bununla ümid edirdi ki, Belarus Rusiyaya birləşəcək, amma Lukaşenko artıq 25 ildir ki, Kremllə oyun oynayır. Lukaşenko həm Yeltsin, həm də Putini aldatdı. İndi o, postsovet məkanında ən parlaq siyasətçi sayılır. Belarus lideri hazırda təhdid altındadır. Bir tərəfdən ona qarşı saray çevrilişi ola bilər, digər tərəfdən isə Belarusda müxalif hərəkat güclənə bilər. Kreml Minskdəki situasiyadan istifadə etməyə çalışacaq".**

## ABŞ rəsmisi: "Rusiyaya heç vaxt güvənmək olmaz"



**"Rusiyaya heç vaxt güvənmək olmaz". Axar.az xəbər verir ki, bunu "NBC Nyus"a müsahibəsində ABŞ-ın BMT-dəki səfiri Nikki Xeyli söyləyib. "Rusiya tərəfindən olan təhdidlərə ciddi yanaşın. Biz heç vaxt Rusiyaya güvənə bilmərik", - o bildirib. Qeyd edək ki, Xeyli əksər respublikaçılar kimi Rusiyaya qarşı sərt siyasətin tərəfdarıdır.**

## Milli Kəşfiyyat İdarəsi 73 yaşlı Koutsa həvalə olundu



**ABŞ Senatı sabiq senator Deniyel Koutsu Milli Kəşfiyyat İdarəsinin rəisi vəzifəsinə təsdiqləyib.**

"RİA Novosti" agentliyinin verdiyi xəbərə görə, bunu Senatda keçirilən səsvermənin nəticələri göstərib.

73 yaşlı D.Kouts on ildən çox Senat üzvü, bundan əvvəl isə dörd il Nümayəndələr Palatasında çalışıb, Senatın kəşfiyyat üzrə xüsusi komitəsinin üzvü olub. Kiçik Corc Buşun prezidentliyi dövründə isə D.Kouts ABŞ-ın Almaniyadakı səfiri olub.

Qeyd edək ki, ABŞ-ın Milli Kəşfiyyat İdarəsinin rəisi, Mərkəzi Kəşfiyyat İdarəsi və Federal Təhqiqatlar Bürosu daxil olmaqla, 17 ABŞ xüsusi xidmətinin fəaliyyətini əlaqələndirir.

# Türkiyə NATO ilə birgə tədbirləri dayandırır

## Ankaranı qəzəbləndirən Almaniya və Hollandiyanın türklərin referendum öncəsi təbliğatına icazə verməməsidir

**Türkiyə NATO-nun tərəfdaşları ilə bəzi təlim planlarını və bir neçə sahədə əməkdaşlığı dayandırmağa qərar verib. "Reuters" xəbər agentliyinin diplomatik mənbələrdən aldığı məlumata görə, NATO-nun 2017-ci ildə Avropa Birliyinə (AB) üzv olmayan ölkələrlə əməkdaşlığını nəzərdə tutan proqram bloklanıb, o cümlədən siyasi tədbirlər, təhsil proqramları, layihələr və hərbi təlimlər təxirə salınır.**



Türk rəsmiləri bu haqda məlumat verməyiblər.

Türkiyəni qəzəbləndirən AB ölkələrindən Almaniya və Hollandiyanın türklərin referendum öncəsi təbliğatına icazə verməməsidir. Aprelin 16-da Türkiyədə konstitusiyaya düzəlişlərlə bağlı səsvermə olacaq və Türkiyə liderləri türklərin çox olduğu Avropa ölkələrində də seçki kampaniyası aparmaq istəyirdilər.

Britaniyanın "The Daily Mail" qəzeti Hollandiyada 400 min, Almaniyada isə 1.4 milyon türkün yaşadığını, onların İstanbul, Ankara və İzmirdən sonra ən böyük elektorata sahib olduqlarını vurğulayır.

Amma Hollandiya keçən həftə Türkiyənin xarici işlər nazirinin təyyarəsinin enməsinə icazə vermədi, iki başqa türk nazirini də ölkəyə buraxmamaqla Ankaranı qəzəbləndirdi.

Ancaq hər biri NATO-ya üzv olduğundan Türkiyə nə Hollandiya, nə də Almaniya ilə əməkdaşlığı bloklaya bilər. Adının açıqlanmasını istəməyən NATO rəsmisinin "Reuters"ə bildirdiyinə görə, Türkiyənin hədəfi yəqin ki, Avstriyadır. Avstriya NATO üzvü deyil, alyansa tərəfdaş ölkədir. Avstriya da türklərin referendum öncəsi tədbirlərinə icazə verməyib. Həm də ötən il Avstriya Avropa Birliyini Türkiyənin quruma daxil edilməsi ilə bağlı danışıqları dayandırmağa çağırıb. Səbəb kimi Türkiyədə çevriliş cəhdindən sonra baş verənləri, 10 minlərlə adamın "təmizləmə" əməliyyatlarına qurban getdiyini - ya həbsə atıldığını, ya da işdən qovulduğunu göstərib.

"Hazırkı durum və bu durumun tərəfdaşlarla əməkdaşlıq proqramlarına təsiri bizi məyus edir. Türkiyə ilə Avstriyanın aralarındakı məsələni tezliklə həll edəcəklərinə ümidliyik". NATO rəsmisi "Reuters"ə müsahibəsində belə deyib.

Türkiyənin əməkdaşlıq proqramlarını blokladığını Avstriyanın Müdafiə Nazirliyi təsdiqləyib, amma bunun onlara hələ ki bir təsiri olmadığını bildirib. "Reuters" isə Türkiyənin bu addımının 22 NATO tərəfdaşına, o cümlədən İsveç, Gürcüstan və Kosovo kimi Əfqanıstana missiya göndərmiş bəzi ölkələrə təsir etdiyini yazır.

Daha bir NATO rəsmisi problemin siyasi xarakter daşıdığını, Türkiyədə referendum keçiriləndən, ara sakitləşəndən sonra proqramların bərpa ediləcəyinə inandığını söyləyib.

NATO-ya üzv olmayan ölkələr isə Türkiyənin bu addımının əməkdaşlığı əngəllədiyini, alyans müttəfiqləri və tərəfdaşlarının birgə fəaliyyətinə zərbə vurduğunu deyirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 59 (6673) 17 mart 2017

**Son bir həftə Qarabağ məsələsi ətrafında müəyyən siyasi-diplomatik canlanma ilə qeydə alındı. Azərbaycan prezidenti İlham Əliyevin Fransaya, Ermənistan prezidenti Serj Sərkisyanın isə Fransa və Rusiyaya səfərləri problemi ən azından ATƏT-in Minsk Qrupunun iki həmsədr ölkəsinin diqqətinə gətirdi. Konfliktin həllində irəliləyişə yönəlik sülh danışıqlarının bərpasına ümidləri artırdı.**





Qriqori Trofimçuk

# Güc mərkəzlərinin insafına qalan nizamlama - Qarabağ danışıqları dalandan çıxacaqmı?

## Azərbaycan və Ermənistan prezidentlərinin Paris və Moskva səfərlərinin ortaya çıxardığı əsas qənaət; **rusiyalı politoloq:** "Kremli nizamlama prosesindən sıxışdırıla bilər..."

Azərbaycan liderinin Parisə səfəri və səfər çərçivəsində fransalı həmkarı ilə görüşü, görüş çərçivəsində tərəflərin Qarabağ mövzusunda bəyanatları haqda məlumat verilib. Azərbaycanın dövlət başçısının erməni lobbisinin ən güclü olduğu ölkələrdən biri kimi Fransaya səfəri xüsusilə önəm daşıyırdı.

Sərkisyan isə bəlli olduğu kimi, Fransadan sonra Rusiyaya yollanıb. Moskvada onunla rusiyalı həmkarı Vladimir Putin arasında keçirilən görüşün nəticəsi ilə bağlı bəyanat qəbul edilib. Rusiya prezidenti Vladimir Putin Dağlıq Qarabağda tərəflərin qəbul edəcəyi hər hansı həll yoluna dəstək verməyə davam edəcəklərini bildirib. "Rusiya Azərbaycanla Ermənistan arasındakı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tərəflərin qəbul edəcəyi həll yoluna istər Minsk Qrupu vasitəsilə, istərsə də İrəvan və Bakı arasında birbaşa danışıqlar çərçivəsində hər cür dəstək verməyə davam edəcək", - deyə Kreml başçısı vurğulayıb.

Məlumatlara görə, Putinlə Sərkisyan həmçinin münaqişənin həlli üçün güc tətbiq etməmək, güc işlətməyə cəhd kimi addımlardan çəkinmək üçün, habelə konfliktin ölkələrin ərazi bütövlüyü, bərabərlik və xalqların hüquqlarının tanınması prinsipləri əsasında sülh yolu ilə həll olunmasına sadiqliklərini təsdiq edib.

Göründüyü kimi, əslində Moskvanın Dağlıq Qarabağ münaqişəsinin həllinə yanaşmasında prinsipial dəyişiklik yoxdur. Kreml yenə də "tərəflər razılığa gəlsin, biz qarant durmağa hazırıq" mövqeyindən çıxış edir. Moskva ilə İrəvanın münasibətlərinin səviyyəsi, işğalçı ölkənin Rusiyadan hansı asılılıqda olduğu nəzərə alınarsa, bu mövqe faktiki surətdə Kremlin problemin həllindən öz yaxasını kənara çəkmək, onun həllinə girişməkdən yayınmaq anlamını verir. Çünki indi də təcavüzkar tərəfə ən güclü təsir və təzyiq imkanı məhz Moskvaya məxsusdur.

*****

Azərbaycan prezidentinin Fransa, Ermənistan prezidentinin isə Rusiya və Fransa səfərlərinin nəticələri siyasi analitiklərin də diqqət mərkəzindədədir. Məsələn, müsavat.com-un məlumatına görə, tanınmış rusiyalı politoloq, daxili və xarici siyasət, müdafiə və təhlükəsizlik sahəsində ekspert Qriqori Trofimçuk hesab edir ki, Dağlıq Qarabağ məsələsini müzakirə eləmək baxımından İlham Əliyevin Paris ziyarəti mühüm önəm daşıyır.

"O cümlədən bu səfər rəsmi Parisin altdan-altdan yalnız Ermənistanı müdafiə etməsi barədə mövcud olan rəylər fonunda önəm kəsb edir. Bununla belə, bir sıra aparıcı Avropa dövlətləri kimi Fransanın mövqeyi də İrəvan qarşısında hansısa hipotetik geosiyasi öhdəliklər axarında yox, bilavasitə cari geosiyasi duruma müvafiq olacaq - hansı durum ki, Rusiya üçün daha da sərtləşməkdədir" , - deyə politoloq rusdilli vesti.az saytına açıqlamasında ehtimal edib.

**Lakin onun sözlərinə görə, Fransa Ermənistanı atmayacaq:** "Əksinə, Moskvanın hərəkətindən və ya hərəkətsizliyindən narahatlığı artdıqca Fransa Ermənistanı özünə daha da yaxınlaşdıracaq. Sadə dildə desək, Paris həm Qarabağ rıçaqından, həm də Azərbaycanla iqtisadi, sərmayə sferalarında əməkdaşlıqdan yararlanmaqla sırf öz mənafeyini güdəcək. Lakin bunu "yeni Vaşinqton"la razılaşdırmaqla edəcək. Bu zaman Rusiyanı nizamlama prosesindən sıxışdırmağa səylər göstəriləcək".

**Analitik həmçinin Azərbaycan prezidentinin Fransaya səfərinin Serj Sərkisyanın Rusiyaya səfəri ilə üst-üstə düşməsinə də diqqət yönəldir:** "Fikrimcə, bu, məqsədli şəkildə edilməyib. Ancaq avtomatik şəkildə belə təəssürat yaranır ki, Bakı nizamlama perspektivlərinə dair cavabları bu cavabları tapmağa ümidli olduğu yerdə axtarır. Xüsusən də fevraldakı kəskinləşmədən sonrakı qarışıq situasiya fonunda - nədən sonra ki, hər hansı diplomatik aktivlik olmayıb - bu təmaslar az önəm kəsb etmir. Halbuki ötən ilin aprel hadisələrindən sonra sülh danışıqlarında fəallıq olmuşdu".

*****

**"Azərbaycan prezidentinin Fransa səfəri çox müsbət çalarlarla yadda qaldı". Bu sözləri isə axar.az-a İlham Əliyevin Fransa səfərini şərh edən politoloq Arzu Nağıyev deyib. Ekspertin sözlərinə görə, ölkə başçısının bütün böyük iqtisadi layihələri həyata keçirən fransalı biznes qurumları ilə görüş zamanı Dağlıq Qarabağ məsələsini əsas problemlərdən biri kimi qoyması və bu fonda verdiyi bəyanatlar öz sözünü deyəcək.**

"Prezident İlham Əliyev Ollandla görüşdə Ermənistana qoyulacaq investisiya ilə bağlı Sərkisyanın verdiyi yalançı mesajların qarşısını aldı. Sərkisyan əvvəllər də Ollandla görüşdə Dağlıq Qarabağ istiqamətində tərəfdaşlıq müqaviləsinin imzalanmasında hər bir millətin öz müqəddəratının həll olunmasını ortaya atmışdı. Məhz Azərbaycan prezidentinin konkret bəyanatları Fransada Azərbaycanın ərazi bütövlüyünü əsas məsələ kimi ortaya qoydu - baxmayaraq ki, Olland bir müddətdən sonra prezidentlik postunu tərk edəcək. Ümumiyyətlə, müsbət haldır ki, Azərbaycan prezidenti birbaşa təmasda olduğu hər bir qurumla Qarabağ məsələsini, Ermənistanda bugünkü durumu ortaya qoydu. Hesab edirəm ki, bölgədə hökm sürən indiki gərgin vəziyyət fonunda ölkə başçısının görüş və bəyanatları Dağlıq Qarabağ münaqişəsinin çözülməsində müəyyən irəliləyişə aparacaq" - ekspert vurğulayıb.

Qeyd edək ki, prezident İlham Əliyev Fransaya martın 13-də səfər edib və Fransa Şirkətlər Hərəkatının (MEDEF) biznes şurasının üzvləri ilə mühüm görüşlər keçirib. Ölkə başçısı martın 14-də isə Parisdə, Yelisey sarayında Fransa prezidenti Fransua Ollandla görüşüb. Görüşün yekununda iki ölkə arasında istisadi sahədə bir sıra sənədlər imzalanıb.

*****

Sözsüz ki, bu qəbildən görüşlər Qarabağla bağlı Ermənistanla aparılan təbliğat savaşında mühüm rol oynayır. Ən azından o səbəbə ki, beynəlxalq hüququn təsbit edilməsi xeyli dərəcədə böyük dövlətlərin, güc mərkəzləri və demokratiya paytaxtlarının iradəsindən asılıdır, nəinki beynəlxalq təşkilatların qərar-qətnamələrindən. Təəssüf ki, XXI əsrin acı reallıqlarından biri də siyasi münasibətlərdə "Güclü həmişə haqlıdır" tezisinin hələ də öz qüvvəsini saxlamasıdır. İki paytaxta edilən üç səfərin doğurduğu əsas qənaət də budur.




## Azərbaycan XİN: "İrəvan danışıqlar üçün şərt qoya bilməz"

"Qarabağ münaqişəsinin həlli üzrə substantiv danışıqlara başlamağa Ermənistan tərəfindən dövlət başçısı səviyyəsində qeyd-şərtin qoyulması Ermənistan tərəfindən qəsdən danışıqların pozulması, boykot və şantaj edilməsidir. Danışıqlara başlamaq üçün hər hansı şərtin irəli sürülməsi qəbuledilməzdir və ümumiyyətlə, münaqişənin həlli üzrə bütün baza sənədlərinin mahiyyətinə və ruhuna ziddir".

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistan prezidenti Serj Sərkisyanın İspaniyanın «Efe» agentliyinə verdiyi müsahibəsində səsləndirdiyi bəyanatlarına cavab olaraq, «Efe» agentliyinə "Bakı hesab edir ki, Qarabağ danışıqlarına hər hansı qeyd-şərtin qoyulması şantajdır" müsahibəsində deyib (Trend). H.Hacıyev 2016-cı ilin iyun ayından Ermənistanın bütün görüşlərdən qaçdığını deyib. Onun sözlərinə görə, prezidentlərin Vyana və Sankt-Peterburq görüşlərində müzakirə olunan məsələlərin mahiyyəti ondan ibarətdir ki, insidentlərin araşdırılması mexanizmi, humanitar məsələlər və münaqişəsinin həlli üzrə substantiv danışırlar paralel və sinxron şəkildə aparılmalıdır.

**XİN rəsmisi deyib:** "Ermənistanın substantiv danışıqlardan imtina etməsi davamlı şəkildə siyasi-hərbi təxribatlar və hərbi avantüra, Ermənistanın siyasi-hərbi rəhbərliyinin müharibə çağırışlı ictimai açıqlamaları, seçkiqabağı daxili siyasi mühitin manipulyasiya edilməsi, işğal olunmuş ərazilərdə öz hərbi imkanlarının artırılması, hərbi təlimlərin keçirilməsi və işğal olunmuş ərazilərin demoqrafik tərkibinin dəyişdirilməsi ilə müşayiət olunur".

Bütün bunların Ermənistanın açıq şəkildə Azərbaycan ərazilərinin ilhaqı siyasəti yürütməsinin göstəricisi olduğunu deyən H.Hacıyev Azərbaycan münaqişənin həlli üzrə substantiv danışıqlara hazır olduğunu da qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 59 (6673) 17 mart 2017

# Tələbələri ölümə aparan... yataqxana problemi

## Məlahət Mürşüdlü: "Hökumət yataqxanalarla bağlı problemi həll etməlidir"

**Azərbaycanda bölgələrdə yaşayan gənclərin tələbə adını qazanması onların həyatlarını çətinləşdirir. Bəzi hallarda isə ümumiyyətlə, əcəllərini yaxınlaşdırır. Bunun bir səbəbi odur ki, ölkədə uzun illərdir universitetlər, kolleclər tələbələrini yataqxana ilə təmin edə bilmirlər. Nəticədə isə yataqxanasız universitetlərin məzarda yatan tələbələrinin sayı günbəgün artır.**

Son bir həftədə Bakıda ümumilikdə 8 tələbənin ölümü ilə nəticələnən ard-arda faciəvi hadisələrin şahidi olduq.

Belə ki, öncə martın 9-da Bakı-Sumqayıt yolunda hərəkət edən "Ford" markalı avtobusun qəza törətməsi nəticəsində səhər Bakıdan Sumqayıt Dövlət Universitetinə dərsə gedən 6 tələbə dünyasını dəyişdi, 17 nəfər isə yaralandı. Bu hadisənin ardınca isə martın 15-də Xırdalanda bir mənzildə ikisi tələbə olmaqla, 5 nəfər qadının meyiti tapıldı. İlkin araşdırmalara görə, onların dəm qazından boğularaq ölməsi ehtimal olunur.




Bütün bu kimi hadisələr Azərbaycanda universitetlərin, kolleclərin tələbə yataqxanalarının olmaması məsələsini bir daha aktuallaşdırır. Əgər universitetlərin, kolleclərin normal şəkildə yataqxanaları olsaydı, bu gün ən azından Xırdalanda baş verən hadisənin şahidi olmazdıq...

Bəs Azərbaycanda hansı universitetlərin tələbə yataqxanaları var və onların vəziyyəti necədir?

Bakıda və Sumqayıtda təhsil alan tələbələrin böyük bir qismi kirayə mənzillərdə yaşayırlar. Bunun əsas səbəbi universitetlərin tələbələri yataqxanalarla təmin edə bilməməsidir.

Xırdalanda baş verən hadisə zamanı dünyasını dəyişən Mələk Abbasova və Turanə Xanlayeva Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecində ikinci kursda oxuyublar. Onlar Xırdalanda kirayə mənzildə yaşayırmışlar.

Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecinin yataqxanası olmadığı üçün rayondan gələn tələbələr kirayə mənzillərdə qalmaq məcburiyyətindədirlər.

Kolleclər bir kənara, yuxarıda da qeyd etdiyimiz kimi, yüzlərlə tələbəsi olan universitetlərimizdə də vəziyyət eynidir. Misal üçün, 18 mindən çox tələbənin təhsil aldığı Bakı Dövlət Universitetinin tələbə şəhərciyi illərdir ki, xarabalığa bənzəyir. Belə ki, 2013-cü ildən etibarən şəhərciyin 3, 4, 5 saylı binaları tam sökülüb. Məqsəd isə universitetin 2019-cu ildə keçiriləcək 100 illik yubileyinə qədər yeni yataqxananın inşa edilməsi olub. Lakin hələ də tikinti işlərinə başlanılmayıb.

Universitetdən bildirirlər ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov onların layihə ilə bağlı müraciətlərinə cavab vermir. Qeyd olunur ki, Maliyyə Nazirliyi tərəfindən layihəyə vəsait ayrılması üçün icra hakimiyyəti tərəfindən inşaat sənədi verilməlidir. Lakin onlar bu sənədin verilməsini gecikdirirlər. Sənədin isə nə zaman veriləcəyi məlum deyil.

İqtisad və Pedaqoji universitetlərin mətbuat xidmətlərindən "Yeni Müsavat"a verilən məlumata görə, tələbə yataqxanalarının bütün binalarında məcburi köçkünlər yaşayırlar. Bu səbəbdən universitetlər tələbələrini yataqxana ilə təmin edə bilmirlər.

Texniki Universitetin 4 saylı yataqxana binası istisna olmaqla, digərlərində məcburi köçkünlər məskunlaşıblar. Yataqxanada yaşayan tələbələr isə buradakı şəraitdən heç də razı deyillər. Bildirirlər ki, nə təmizlik, nə də kommunal xətlərin vəziyyəti müasir tələblərə cavab vermir.

Xarici Dillər Universitetinin nəzdində olan 2 yataqxanadan birində məcburi köçkünlər məskunlaşıblar. Digər yataqxananın da bir hissəsində məcburi köçkünlər yaşasalar da orada təxminən 200-ə qədər tələbənin yaşaması üçün şəraitin olduğu bildirildi.

Yeganə Azərbaycan Tibb Universitetinin tələbə yataqxanasında vəziyyət yaxşıdır . Bu universitetdə təhsil alan tələbələrin sözlərinə görə, hazırda universitetin 5 tələbə yataqxanası fəaliyyət göstərir. Bunlardan ikisi qızlar, ikisi oğlanlar üçündür. Digər yataqxanada isə xarici tələbələr qalır. Universitet toplam 1000 nəfərə yaxın tələbəni yataqxana ilə təmin edə bilib.

**Təhsil üzrə ekspert Məlahət Mürşüdlü "Yeni Müsavat"a bildirib ki, hökumət tələbə yataqxanaları ilə bağlı problemi həll etməlidir:** "Azərbaycanda bütün universitetlərin yataqxanalarında vəziyyət demək olar ki, eynidir. Bir qismində məcburi köçkünlər yaşayırlar, digər qismi isə şəraitsizdir. Tələbənin asudə vaxtını keçirməsi, normal şəraitdə dərs çalışması üçün şərait yoxdur. Xüsusilə də bu, rayondan gələn tələbələrə aiddir. Hansı ki, onların yaşam şəraitinə baxdıqda görürsən ki, məcburiyyətdən normal sanitariya qaydalarının olmadığı evlərdə kirayə qalırlar. Elə dəm qazından boğulan tələbələri də buna misal göstərmək olar. Başqa hadisələr də baş verir. Təbii ki, biz bu məsələni çox qabartmışıq. Ancaq hələ də vəziyyət eynidir. Düşünürəm ki, hökumətin bir proqramı olmalıdır ki, rayonlardan gələn tələbələri yerləşdirsinlər. Necə ki, Türkiyədə müəyyən yurdlar yaradılıb və həmin yurdlarda tələbə üçün müasir tələblərə cavab verən hər şey nəzərə alınıb, burada da belə olmalıdır. Belə yurdlara bizim də ölkədə ehtiyac var. Bu, valideynlər üçün də çox çətindir".

❑ Əli RAİS

# Türkiyəli biznesmenin Bakıda yumurta davası siyasiləşdi

## Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədri bəyanat yaydı; Aslan İsmayılov isə "özünüzü yormayın, gedin, iş adamının pulunu ödəyin" dedi

**"Xəmsə-M" MMC-nin rəhbəri Mürvət Həsənlinin Türkiyənin ən iri toyuq məhsulları müəssisəsi olan "Emre Piliç Gıda Sanayi ve Ticaret Limited" şirkətinin təxminən 1,7 milyon ABŞ dolları məbləğində pul vəsaitini ələ keçirməsi işi artıq siyasiləşməyə başlayıb.**



Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədri Əziz Ələkbərli şirkətlə bağlı bəyanat yayıb.

Ə.Ələkbərlinin modern.az-a yolladığı həmin bəyanatda deyilir: "Bugünlərdə Türkiyənin aparıcı şirkətlərindən olan "Əmrə piliç" şirkətinin təsisçisi, Türkiyə İş Adamları Birliyi İdarə Heyətinin üzvü Ömür Oralın Bakıya gələrək burada mediya nümayəndələrini toplayıb, mətbuat konfransı keçirməsi və bu mətbuat konfransında Qərbi Azərbaycan qaçqınlarını və bütün Qərbi Azərbaycan əsilli insanları təhqir etməsi cəmiyyətimizin üzvləri tərəfindən qəzəblə qarşılanıb. Cənab Ömür Oral mətbuat konfransında çıxış edərək, təsisçisi olduğu şirkətin ortaqlarından ikisinin erməni əsilli olduğunu etiraf etmiş, lakin onları İstanbul doğumlu olduğuna görə türk adlandırmış, ticari mübahisəsi olduğu Azərbaycan iş adamını isə Ermənistan (Qərbi Azərbaycan) doğumlu olduğuna görə erməni adlandırmışdı. Bununla ürəyi soyumayaraq, bu fikrini üç dəfə təkrar etmişdi: "Mən indi sual vermək istəyirəm: Ermənistanda doğulanmı ermənidir, İstanbulda doğulanmı erməni-dir?" 2008-ci ildən Azərbaycanda ticarət qurub, illər boyu buradan milyonlar qazanan bir adamın yüz minlərlə Qərbi Azərbaycan doğumlu Azərbaycan vətəndaşını bu cür təhqir etməsini, ortaqları Arto Sevan Oskayanı və Andranik Raffi Bozaçıyanı isə türk adlandırmasını Azərbaycan xalqını ələ salmaqdan başqa bir şey hesab etmirik. Cənab Ömür Oral heç olmasa ortaqlarının "yan" soyadından və "Sevan", "Andranik" adlarından utanıb xəcalət çəkməli və yadına salmalı idi ki, Bozaçıyanın adını daşıdığı Andranik 1914-1915-ci illərdə Sarıqamışda, Türkiyənin başqa bölgələrində yüz minlərlə türk vətəndaşını, uşağını, gəncini, qadınını, qocasını vəhşicəsinə qətlə yetirmişdi. Bu gün hələ də "yan" soyadını, Andranik adını daşıyan erməni necə olur ki, türk olur?... Biz 400 min nəfər Qərbi Azərbaycan qaçqınını, 4 milyona yaxın Qərbi Azərbaycan əsilli insanı təmsil edən bir cəmiyyət olaraq insanlarımızı təhqir edən və bizim üçün milli mənsubiyyəti şübhəli olan Ömür Oral adlı bu insanın dərhal Azərbaycandan çıxarılmasını, onun Azərbaycanla bütün əlaqələrinin kəsilməsini istəyirik. Azərbaycan Ermənistanla müharibə vəziyyətində olan bir ölkədir və müharibə gedən bir ölkədə Ömür Oral kimi insanların gəlib ermənipərəst təbliğat aparmasına qəti şəkildə yol verməmək olmaz. Belə insanlar Azərbaycan-Türkiyə qardaşlığına da ziyan vurur. Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyindən vətəndaşının bu hərəkətinə aydınlıq gətirməsini gözləyirik".

Yada salaq ki, bu bəyanatdan bir neçə gün əvvəl Ömür Oral və onun nümayəndəsi, tanınmış hüquqşünas Aslan İsmayılov mətbuat konfransı keçirərək pul ödənməyincə hüquqi müstəvidə mübarizəni davam etdirəcəklərini bəyan etmişdilər. Həmin mətbuat konfransından hazırlanan "Türkiyəli iş adamı Azərbaycanda pulunun ələ keçirildiyini bildirib" adlı reportajla http://musavat.com/news/turkiyeli-is-adami-azerbaycan-da-pulunun-ele-kecirildiyini-bildirib_422137.html linkinə keçid etməklə tanış ola bilərsiniz.

**Ə.Ələkbərovun yaydığı bəyanatda qeyd etdiyi fikirlərlə bağlı Ö.Oralın nümayəndəsi A.İsmayılovun münasibətini öyrəndik. A.İsmayılov bildirdi ki, məlum bəyanat yayılandan sonra Ö.Oralla danışıb:** "Mətbuat konfransında mən elə bir fikirlərin səsləndirildiyinə fikir verməmişəm. Ömür Oral dedi ki, həmin ifadəni bu cür işlədib: "Ermənistanı görməyən adama da erməni de, Ermənistanda doğulub, orada yaşayan və azərbaycanlıya düşmən olana da erməni de". Bunlar bu fikirləri təhqir formasında təqdim etməklə, özlərindən uydurduqları təhqirə əsaslanmaqla cəfəng bəyanatlar yayırlar. Bu adamlar pulu ödəməmək üçün belə çirkin yollara əl atırlar, insanlara şər atmaqdan çəkinmirlər. Ömür Oralın "Ermənistanda doğulanlar ermənidir" fikri olmayıb".

**A.İsmayılov deyir ki, Mürvət Həsənli Ömür Oralın iştirakı olmadan onun şərikləri ilə İstanbulda daim yeyib-içiblər:** "İstanbulda erməni dediyi şəxslə yeyib-içən Mürvət Həsənli olub. Erməni dediyi şəxsin 40 min dollara alıb ona bağışladığı saatı çatan-çatana göstərib "bunu mənə şərikim bağışlayıb" deyən də elə Mürvət Həsənli olub. Bunu onun ətrafında olan hər kəs bilir. Hər yerdə deyirdi ki, bu saatı mənə türkiyəli ortaqlarım bağışlayıb. Həmin saatı məhz bu gün erməni əsilli olmasını dediyi keçmiş şəriki bağışlayıb".

**Tanınmış hüquqşünas bir daha vurğulayıb ki, M.Həsənli və onun arxasında dayananlar belə bir şərləmə kampaniyası aparmaqla pulu ödəməkdən yayınmağa çalışırlar:** "Özlərinə əziyyət verib belə çirkin əməllərin altına qol qoymasınlar. Ona görə ki, istənilən halda pulu ödəməli olacaqlar. Bu məsələ Mürvətlik deyil, bunu çox yaxşı bilirik. Məni cəmiyyətə dalaşqan, cığal adam kimi təqdim etməklə nüfuzdan salmağa çalışırlar. Facebook səhifəmdə yazdıqlarım hakimiyyətdə olan bəzi şəxsləri narahat edir və belə nadürüst addımlar atırlar. Sözüm onlaradır - özünüzü yormayın, gedin, iş adamının pulunu ödəyin!"

❑ E.MƏMMƏDƏLİYEV

# Xalq artistinin qardaşının obyekti sökülür

**Aqil Abbas:** “Akif Babayev kinoteatrın direktoru vəzifəsində çalışanda Arif Babayev hələ Ağdamda idi”
**Amaliya Pənahova:** “Binanın bizim teatra verilməsi haqda hələlik heç nə deyilməyib”

**Bakının mərkəzində yerləşən “Dostluq” kinoteatrının tezliklə söküləcəyi barədə məlumatlar yayılıb. Qeyd olunur ki, kinoteatrın binasında fəaliyyət göstərən qurumlara tezliklə ərazini boşaltmaları ilə bağlı xəbərdarlıq da edilib. Gunsesi.info saytının məlumatına görə, kinoteatrının daxilində xalq artisti Arif Babayevə məxsus kafe-çayxananın da təcili boşaldılması ilə bağlı xəbərdarlıq olunub.**




“Bizə dedilər ki, ”Drujba"nı təcili boşaldın".

Bu haqda isə xalq artisti A. Babayev gununsesi.info-nun əməkdaşı ilə söhbətində bildirib. Xanəndə yayılan məlumatların doğru olduğunu vurğulayıb: “Bu haqda bizə və ”Dostluq" kinoteatrının binasında fəaliyyət göstərən digər təşkilatlara da xəbərdarlıq olunub. Lakin kinoteatrın hansı məqsədlə boşaldılması, nəyə görə söküləcəyi ilə bağlı əlavə heç nə bildirməyiblər".

Qeyd edək ki, “Dostluq” kinoteatrı hələ sovet dönəmindən, 1960-cı ildən fəaliyyət göstərib və vaxtilə paytaxtın ən məşhur kinoteatrlarından biri hesab olunub. Nəsimi rayonu ərazisində yerləşən kinoteatrın əsas fəaliyyəti kino sənətinin təbliğinə, kino və videofilmlərin nümayişinin təşkilinə, kinofestivalların, kino günləri və yaradıcılıq gecələrinin, işgüzar görüşlərin, digər kütləvi və kommersiya tədbirlərinin keçirilməsinə yönəldilb. Lakin uzun müddətdir ki, kinoteatrın fəaliyyəti səngimişdi. İnsanları daha çox burda yerləşən çayxana cəlb edirdi. Binanın bir hissəsində artıq 7 ildir ki, Bakı Bələdiyyət Teatrı yerləşirdi. Kinoteatrın sökülməsi ilə bağlı yayılan bəzi iddialara görə, binanın yerində çoxmərtəbəli binalar tikiləcək, bəzi iddialara görə isə yenidən təmir olunaraq uzun illərdir ki, binasız qalan Bakı Bələdiyyət Teatrına veriləcək.

**Məsələ ilə bağlı Bakı Bələdiyyət Teatrının rəhbəri xalq artisti Amaliya Pənahova “Yeni Müsavat”a açıqlama verib:** “Siz özünüz də yaxşı bilirsiz ki, Bakı Bələdiyyə Teatrının uzun illərdir ki, binası yoxdur. Bizə hələ ki belə bir məlumat verilməyib. Bizim teatr 15 il Şəhriyar adına Mədəniyyət Sarayının binasına fəaliyyət göstərib. Lakin müəyyən məsələlərə görə teatrımız oradan ”Dostluq" kinoteatrının binasına köçürüldü və 7 ildir ki, bu binada yerləşmişik. Amma binanın bizim teatra verilməsi haqda hələlik heç nə deyilməyib, bu haqda məlumatımız yoxdur".

**Qeyd etdiyimiz kimi, “Dostluq” kinoteatrının binasında eyni zamanda bir çox tanınmışların üz tutduğu çayxana yerləşir. Çoxlarına məlumdur ki, bura daha çox tanınmış ağdamlılar yığışar, söhbətləşərdilər. Həmin tanınmışlardan biri də deputat, tanınımış yazıçı Aqil Abbasdır. Deputat kinoteatrın sökülməsi ilə bağlı yayılan məlumatlara bu cür mövqe bildirdi:** “Kinoteatrın binasında yerləşən çayxanaya ən çox ağdamlılar və qarabağlılar yığılırdı. Mənim işçilərim də ora gedirdi. Adətən yayda yığışırdıq, çayxana qışda elə də fəaliyyət göstərmirdi... Kinoteatrın sökülməsi ilə bağlı mətbuatdan oxudum, yazılmışdı ki, oranın rəhbəri xalq artisti Arif Babayevdir. Amma oranın direktoru onun qardaşı Akif Babayevdir. Akif Babayev kinoteatrın direktoru vəzifəsində çalışanda Arif Babayev hələ Ağdamda idi, təzə-təzə Bakıya gəlirdi. O binada da Amaliya xanımın teatrı yerləşir. Kinoteatr uzun müddətdir ki, təmir olunmur. Ümumiyyətlə, Azərbaycanda heç kinoteatr qalıb ki? Bircə ”Nizami" adına kinoteatr qalıb. Doğrudur, müəyyən kino zalları var, amma onlar axı kinoteatr deyil. Kinoteatrların hamısı yavaş-yavaş sıradan çıxmağa başlayır. Çünki onlar düzgün təbliğ olunmur. Artıq Bakı bizim tanıdığımız Bakı deyil. “Gün keçdi” filmindən bir epizodu yadınıza salım, bir kor çəliklə gedib öz evini axtarır. Əlini divarlara sürtə-sürtə gedib evini tapır... Bakının müəyyən simvolları var ki, onları qoruyub saxlamaq lazımdır. Elə yerlər var ki, onlar qorunmalıdır. Vaxtilə “Drujba” adlanan “Dostluq” kinoteatrı da qədim binalardan biri idi. Ona əl gəzdirib yenidən kinoteatr və ya mədəniyyət ocağı kimi istifadə etmək mümkündür. İndi ora gedən insanlar başqa yer tapıb yığışacaqlar. Amma Bakı “Drujba”nı tapmayacaq".

❑ **Xalìdə GƏRAY**

# BŞİH-in bayram çadırlarında partlayıcı maddələr satılır-təhlükə

Novruzla bağlı qurulan satış yarmarkasında qadağan olunmuş pirotexnik vasitələr peyda olub; **qurum rəsmisi:** “Dərhal tədbir görüləcək...”

**Novruz bayramı yaxınlaşdıqca Bakını yenə partapart səsləri ağuşuna almaqdadır. Söhbət istifadəsi və satışı qadağan olan pirotexniki vasitələrdən gedir. Belə ki, Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) başçısının hələ 17 dekabr 2001-ci il tarixli sərəncamı ilə partlayıcı oyuncaqların, fişənglərin satışı və istifadəsi qadağan edilib. Belədirsə, şəhərdə partladılanlar nədir və kim tərəfindən gətirilir?**

Öncə qeyd edək ki, bu vasitələrin qadağan oldunduğunu demək olar ki, şəhərdə bütün satıcılar bilir. Ən azından onlarla söhbətimiz zamanı biz bunu müşahidə etdik. Şəhərdə mağazalarda belə vasitələrin satışına rast gəlmədik. Lakin qəribə hal ondan ibarətdir ki, metronun “28 May” stansiyasının qarşısında Novruz bayramı məqsədilə qurulan alış-veriş yarmarkasında bu cür maddələrlə rastlaşdıq. Özü də çadırda pirotexniki vasitələrin demək olar ki, hər növü açıq şəkildə satılırdı.

Satıcılarla söhbətimiz zamanı onlar bildirdilər ki, bu vasitələrin satışının qadağan olduğunu onlara kimsə söyləməyib. Pirotexniki vasitələri haradan aldıqlarına gəlincə isə onlar bunu söyləməkdən imtina etdilər.

Paytaxtın digər satış nöqtələrində isə partlayıcı vasitələrə rast gəlmədik. Öyrəndik ki, bu kimi vasitələrin satışı sosial şəbəkələr üzərində yaradılan qruplar vasitəsilə də təşkil edilir. Səbəb də qoyulan qadağadan yayınmaqdır.

Onu da qeyd edək ki, Yeni il öncəsi pirotexniki vasitələrin ölkəyə gətirilməsi və satışı məsələsi ciddi nəzarət altına alınmışdı. Belə ki, ötən ilin noyabr ayında Tovuz Gömrük İdarəsinin “Sınıq Körpü” gömrük postunda Gürcüstandan gələn Azərbaycan vətəndaşının idarə etdiyi nəqliyyat vasitəsinə gömrük baxışı keçirilmişdi. Yoxlama zamanı avtomobildən gömrük nəzarətindən gizlədilən 3 adda, ümumilikdə 59 216 ədəd pirotexniki vasitələr aşkar edilərək götürülmüşdü.

Bu kimi qadağan olunmuş məhsulların satışına BŞİH Ticarət və Xidmət Departamenti, Daxili İşlər Nazirliyinin və Gömrük Komitəsinin əməkdaşları nəzarət edirlər. Lakin maraqlı məqam ondan ibarətdir ki, yuxarıda qeyd etdiyimiz bayram çadırlarını (yarmarkalar) da elə Bakı Şəhər İcra Hakimiyyəti təşkil edib.

**Məsələ ilə bağlı münasibət öyrənmək üçün BŞİH Ticarət və Xidmət Departamentinin mətbuat xidmətinin rəhbəri Əliabbas Bağırovla əlaqə saxladıq. Ə. Bağırov “Yeni Müsavat”a bildirdi ki, bu kimi maddələrin satışına icazə yoxdur:** “Bu kimi vasitələr satışda olmur. Onların satışının qarşısının alınması üçün Daxili İşlər Nazirliyinin əməkdaşları çalışırlar. Biz isə onlara kömək edirik. Həmin vasitələr qeyri-qanuni küçə ticarəti vasitəsi ilə yayıla bilər. Biz bayram günlərində adamlarda qorxu, həyəcan yaradan belə vasitələrin satışına qarşı mübarizə aparırıq”.

**Pirotexniki vasitələrin Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən təşkil olunan yarmarkada satıldığını söyləyincə isə Ə.Bağırov bundan xəbərsiz olduqlarını söylədi:** “Əgər elə şey varsa, dərhal müdiriyyəti xəbərdar edəcəyəm. Həmin vasitələr oradan yığışdırılacaq. Elə indicə biz müvafiq tədbirləri görəcəyik. Biz onların satışının qarşısını alırıq. Necə ola bilər ki, kimsə gətirib, belə bir şey satsın. Dərhal bu işlə məşğul olacağıq”.

Əlavə edək ki, yarmarkada pirotexniki vasitələrin bir neçə növü satılır.

❑ **Əlì RAÌS**
**Fotolar müəllìfìndìr**

# Ölmək dərmanı...

Ölkədə dərman preparatları ilə bağlı çoxalan neqativ halların səbəbi; **Adil Qeybulla:** “Dünyanın heç yerində Azərbaycandakı kimi dərmanlarla bu cür davranmırlar”

**Ölkədə dərmanlardan zəhərlənmə halları artıb. Yalnız mart ayı ərzində xeyli insan dərmandan zəhərlənib, hətta ölüm halı belə qeydə alınıb. Onların arasında uşaqlar da var. Belə ki, martın 10-da Xəzər rayonunun Mərdəkan qəsəbəsində yaşayan Elman Rəhimov dərmandan zəhərlənmə diaqnozu ilə xəstəxanaya gətirilib və orada dünyasını dəyişib. Bundan bir müddət öncə isə epilepsiya əleyhinə qəbul edilmiş iki oxşar preparatdan (“Karbamazepin”, “Finlepsin”) iki azyaşlı uşaq zəhərlənib.**



Dərman preparatlarından zəhərlənmə halları dərmanların keyfiyyətini sual altında qoyur. 10 il əvvələ qədər bir yerimiz ağrıyanda ağrıkəsici qəbulu ağrımızı kəsməyə kifayət edirdisə, indi 2-3 dənəsini belə qəbul etdikdə təsir etmir. Buna da səbəb dərmanların keyfiyyətsizliyi göstərilr. Araşdırmalara görə, keyfiyyətsiz dərmanlardan istifadəyə görə hər il dünyada 1 milyondan çox adam həyatla vidalaşmalı olur. Hər 4 gündə Avropada gömrük işçiləri tərəfindən 1 milyondan artıq saxta preparat müsadirə olunur.

Bu gün ölkəmizdəki apteklərin əksəriyyətində dünyanın bir çox ölkələrindən gətirilən dərmanlar satılır. Bu dərmanların qiyməti isə od tutub yanır. Çox zaman həkim yazan reseptdəki dərmanları qiymətinə görə almaqda çətinlik çəkənlər daha ucuz qiymətə onun əvəzedicisini almalı olurlar. Əczaçılar bir çox xəstələrə ala bilmədikləri dərmanın əvəzinə müxtəlif əvəzedicilər təklif edir ki, bunların da əslində heç bir faydası olmur və hətta onların qəbulu zəhərlənmələrə gətirir.

Ölkə əhalisinin əksər hissəsinin imkansız olduğunu nəzərə alaraq bundan istifadə etmək istəyən işbazlar daha çox Şərq ölkələrindən ucuz dərmanlar idxal etməyə üstünlük verirlər. Avropa ölkələri istehsalı olan dərmanlardan bir neçə dəfə ucuz olan həmin dərmanlar isə çox vaxt heç bir müsbət təsir göstərmir.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla burada söhbətin yalnız zəhərlənmədən deyil, həm də həmin dərmanların yaratdığı çoxsaylı başqa fəsadlardan getdiyini dedi:** “Dərmanlardan zəhərlənmə halları ilk növbədə xəstələrin dərmanlardan özbaşına, reseptsiz, hansısa qeyri-tibb mütəxəssisinin məsləhəti ilə və sairə istifadəsi ilə daha çox bağlıdır. Dünyanın heç yerində Azərbaycandakı kimi apteklərdən sərbəst dərman alma imkanı yoxdur. Yəni dərmanlarla bu cür rəftar etmək olmaz. Bəzən bu, son nəticədə problemlər yaradır. Məsələn, birmənalı şəkildə kəskin respirator infeksiyalarda uşaqlara xüsusən də ”Aspirin" vermək qadağandır. Bu, dünyanın hər yerində artıq protokola çevrilib. Amma bir də görürsən ki, bizdə kimsə bunu alır və daha sonra problem yaranır. Hər 100-200 xəstədən birində qaraciyərdə, digər orqanlarda ciddi problemlər yaşanır. Çünki söhbət yalnız zəhərlənmədən deyil, həm də həmin dərmanların yaratdığı çoxsaylı fəsadlardan gedir. Digər faktor isə dərman maddələrinin özlərinin keyfiyyət parametrlərinin aşağı olması, tərkibində dərman əlavələri deyilən dərmanlara rəng, struktur, dad verən maddələrin keyfiyyət parametrlərinin aşağı salınmasıdır. Burada çoxlu faktorlar var. Amma birinci növbədə dərman qəbulu həkim təyinatı ilə olmalı, aptekdən həkim resepti ilə buraxılmalıdır. Nə qədər ki, bu prinsiplərə əməl olunmur, dərman bazarında və dərmanların qəbulu zamanı baş verən bu fəsadlara nəzarət etmək də mümkün olmayacaq".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 59 (6673) 17 mart 2017

# Avropa Məhkəməsi girovlarımızla bağlı müraciətə niyə baxmaq istəmir?

**Fərəc Quliyev:** "Toparlanıb özümüz öz gücümüzə problemi həll etməliyik, başqa yol yoxdur"
**Əsabəli Mustafayev:** "Məhkəmə tərəfindən müraciətin nə üçün qəbul edilmədiyi açıqlanmır"



**"Artıq iki ilə yaxındır ki, atamın ermənilər tərəfindən hüquqlarının pozulması ilə bağlı Avropa Məhkəməsinə müraciət etsək də, müraciətimizə baxılmayıb". Bu sözləri erməni işğalçıları tərəfindən Kəlbəcərdə girov götürülən Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərov azvision.az saytına açıqlamasında bildirib. Qeyd edək ki, öz torpaqlarında erməni quldurları tərəfindən qanunsuz olaraq girov götürülən Dilqəm Əsgərov və Şahbaz Quliyevin işi ilə bağlı 2014-cü ildə Avropa Məhkəməsinə müraciət edilib.**

Müraciətdə Avropa Konvensiyasının əlavə protokolunun 11 maddəsinin pozulduğu iddia edilib, tutarlı sübutlar əks olunub. Lakin Avropa Məhkəməsi qeyri-obyektivlik göstərərək müraciətə presedent qaydada baxmaqdan imtina edib. Hətta məsələ ilə bağlı Azərbaycan hökuməti də müraciət ünvanlayıb. Lakin bu günə qədər müraciət cavabsız qalıb. Maraqlıdır ki, siyasilərlə bağlı məsələlərdə Avropa Məhkəməsi kifayət qədər fəallıq göstərir. Bunu zaman-zaman siyasi fəallarla bağlı çıxarılan qərarlardan müşahidə etmək olur. Bəs niyə Avropa İnsan Hüquqları Məhkəməsi öz torpaqlarında girov götürülən Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı müraciətə baxmaq istəmir?



**Millət vəkili, Milli Dirçəliş Hərəkatının (MDH) lideri Fərəc Quliyev məsələyə bu cür mövqe bildirdi:**

"Şahidi oluruq ki, başqa ölkələrdə bu cür hadisələr olanda Avropa Məhkəməsi reaksiya verir. Azərbaycanın ərazilərinin işğalı ilə bağlı 4 qətnamə qəbul edilib. BMT nizamnaməsinin 7-ci maddəsinə və 45-48-ci hissəsinə görə, qeyri-hərbi və hərbi sanksiyaları tətbiq etməklə qətnamələri həyata keçirmək mümkündür. Belə qətnamələr qəbul olunanda bir neçə saatın içərisində reallaşdırılır. Məsələn, Liviyanın timsalında biz bunu gördük. Və yaxud girov götürülən adamların xilas olunması ilə bağlı dərhal beynəlxalq təşkilatların çağırışı olur və böyük güclər öz imkanlarını səfərbər edirlər və real hadisələrə müdaxilə edirlər. Hətta tədbir görürlər, nəinki çağırışlar edirlər. Amma Azərbaycanda birisi öz torpağında doğmalarının qəbrini ziyarət edəndə oğurlanır, girov götürülür və buna qarşı heç bir münasibət bildirilmir. Çünki bizim insanlara qarşı anormal, dözülməz münasibət var. Biz indi üzdə olanı deyirik, yəni iki nəfərin girov götürülməsini bildiririk. Amma 90-cı illərdən bəri bizim yüzlərlə insanımız girov götürülüb. Hətta xarici jurnalistlər girovlarımızın mədənlərdə qul kimi işlədiyini, xüsusi kamplarda əsir saxlanıldığını, onların orqanlarının satıldığını deyirlər, amma bir dəfə də müşahidəçilər ora getməyib. Lakin məsələ qaldırırlar ki, "biz indiki cəbhə bölgəsində, Azərbaycanın tən ortasında monitorinq keçirilməsi üçün görmə qurğuları qoyaq və kimin atəşi pozması məsələsini müşahidə edək". Amma demirlər ki, ermənilər əvvəlki sərhədlərə çəkilsin, Azərbaycanla Ermənistan arasında qurğular qoyulsun. Yəni məhz cəbhə xəttində qurğu qoymaq istəyirlər. Bu, Azərbaycana olan ədalətsiz bir münasibətdir. Göründüyü qədər, bizim türk və müsəlman olmağımız bu basqılara səbəb olub. Bu, bizim taleyimizdir. Ədalətsizliyə qarşı yeganə yolumuz toparlanıb özümüz öz gücümüzə problemi həll etməliyik, başqa yol yoxdur".

**Tanınmış vəkil Əsabəli Mustafayev azərbaycanlı girovlarla bağlı Avropa Məhkəməsinə göndərilən müraciətin baxılmamasına bu cür aydınlıq gətirdi:**

"Bildiyim qədər həmin müraciət məhkəmə tərəfindən baxılmayan müraciət hesab olunur, ona görə də baxılmır və baxılmayacaq da, əgər ki, qəbul edilməyən sayılıbsa. Yəni bu məsələnin qısa cavabı bundan ibarətdir. Əgər qəbul edilən olunarsa, məlumat verilir, qeyd olunur ki, hazırda baxılmaq ərəfəsindədir. Müraciətin niyə qəbul edilməyənlər sırasında olmasının səbəbini isə bilmirəm, bu barədə şərhi yalnız müraciəti yazanlar qeyd edə bilər. Lakin qeyd edim ki, müraciətin qəbul olunması ilə bağlı bəzi tələblər var, məsələn, şikayətin vaxtında verilməsi və əsaslandırılma hisssinin necə olması ilə bağlı. Burda böyük bir problem ondan ibarətdir ki, məhkəmə tərəfindən müraciətin nə üçün qəbul edilmədiyi açıqlanmır, bu, praktikada yoxdur. Çox nadir hallarda məhkəmə hansısa qeydlərini verir.

Siyasilərlə bağlı məsələyə gəldikdə isə onu demək istəyirəm ki, Avropa Şurasının qaydaları var, hansı işlərə nə vaxt baxılır deyə ardıcıllıq var. Birinci sırada fundamental hüquqların pozulması durur. Tutaq ki, sərbəst toplaşma, vicdan azadlığıdır və sairə. Buna görə də müəyyən miqdarda bu məsələlərə tez baxılır. Ona görə tez baxılır ki, bu, artıq Azərbaycanda sistem pozuntusudur, çoxlu sayda şikayətlərdir. Belə olan halda hansı ölkənin olmasından asılı olmayaraq Avropa Məhkəməsi bunu sistem pozuntusu kimi qəbul edir və tezləşdirilmiş üsulda baxır. Əgər eyni pozuntular çoxlu sayda və tez-tez baş verirsə, onda qərarlarla bağlı pilot sistemə keçirilir".

❑ **Xalidə GƏRAY**

**ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara**
**Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.

- ✳ Diaqnozu bilinməyən ağır hallar;
- ✳ Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- ✳ Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- ✳ Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- ✳ Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- ✳ Sidikdə və spermada qan;
- ✳ Spermanın azalması, itməsi;
- ✳ Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
- ✳ Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
- ✳ Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- ✳ Tala-tala və hərtərəfli saçların tökülməsi;
- ✳ Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
- ✳ Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- ✳ Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- ✳ Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*
Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

YENİ MÜSAVAT
N 59 (6673) 17 mart 2017

# “Bu işin bir sirri var...”

## Facebookun azərbaycanlı işçisi Aytəkin Əliyeva ABŞ-da olan əməkdaşımıza öz hekayəsini anlatdı

**“Sizə gözəl sürprizim var. Xəbəriniz varmı ki, facebook (instaqram) şirkətlərində azərbaycanlı ər-arvad işləyir? İstəsəz, sizə onların nömrəsini verərəm və San Fransisko səfəriniz zamanı onlarla da görüşərsiz”...**

**Lənkəranlı müəllimənin facebooka qədər uzanan uğur hekayəsi:** “Həyat yoldaşım da bu şirkətdə çalışır, amma gün boyu burda bir-birimizin üzünü görmürük”

Amerika səfərimə can yandıran, müsahib axtarışlarımda yoluma yaşıl işıq yandıran telejurnalist, Vaşinqtonda yaşayan Aynur Talıbova idi bu anonsun müəllifi. Hələ Bakıda olanda, yeni Amerikaya yola düşmədən bu anonsu verdi, həmin ailənin xanımı ilə əlaqələrimi yaratdı... Amma və lakin... Hamını bir araya yığan bu məşhur sosial şəbəkənin içinə girmək Ağ Evə girməkdən daha çətin imiş. 10 gün öncədən rəsmi məktub yazdıq - “sizə qonaq gələ bilərikmi?” janrında. Əsaslandırılmış, rəhbərlik tərəfindən imzalanmış, möhürlü bir sənədi onların rəsmi ünvanlarına yolladıq. Tamam, hər şey bitdi, deyərkən... Çikaqo səfərimin ilk günündə elə facebook rəsmisindən “qara kağız” gəldi. Xüsusi izahat da verilmədi. Sadəcə, üzgün imişlər, bizə yardım edə bilmirlərmiş, binaya girməyə icazə vermirlərmiş... Olsun, Mark müəllim yüz milyonların sevinc-kədərlərini, iç üzlərini, fəaliyyətlərini, cikini-bikini bir internet ünvanına toplasa da, öz məkanını olduqca mərhəm saxlayır. Hər istəyən ayaq basa bilməzmiş.

Hətta o qədər ki, facebook (instaqram)da çalışan azərbaycanlı həmvətənimizlə şirkətin həyətində görüşmək istəyəndə belə mühafizəçinin sorğu-sualı ilə qarşılaşdıq. Həmyerlimiz Aytəkin Əliyeva bizimlə facebook loqosunun qabağında müsahibə vermək üçün anlaşmışdı. Onun gəlişinə qədər maşında yarım saata qədər gözlədik. Bu arada mühafizəçi üç dəfə (!) gəldi, gözlədiyimiz adamın kimliyini, niyə gecikdiyini soruşdu. Şirkətin işçisi, bizim potensial müsahibimiz Aytəkin xanım facebookun, öz qanuni iş yerinin loqosunun qabağında dayanıb, müsahibə vermək istəyəndə isə... məlum oldu ki, bu da yasaqmış.

"Amerikalılara demokratiya dərsi verilməz..." deyib yaxınlıqdakı kafelərdən birinə üz tutduq biz də. Aytəkin xanım bizə Azərbaycandan bu məşhur məkana uzanan hekayəsinin detallarını danışmağa başladı.

***- Aytəkin xanım, ilk sual bəllidir. Hamının beynində bir məsələ cavablanmamış qalıb: haradan haraya? Necə oldu ki, yolunuz bu nəhəng şirkətə düşdü?***

- Mən özüm əslən Lənkərandanam. Lənkəran Dövlət Universitetini bitirdikdən sonra orda müəllimə işləmişəm. Orda çalışdığım ilk günü xatırlayıram. Sentyabrda ilk dərs günündə bütün məktəb şagirdlərinin və direktorunun qarşısında çıxışım olub. Gələcək planlar, uşaqların inkişafı haqda idi bu çıxış. Orda 5-6 il yaşamışam və müəllimə işləmişəm. Buna baxmayaraq, hər zaman düşünürdüm ki, müəllimlik sənətini nə qədər sevsəm də, müəllim ailəsində doğulsam da, mənim xəyallarım daha böyükdür. Daha böyük işlər görmək istəyirəm. Cəmiyyətə daha böyük aspektdən fayda vermək istəyirəm. Müəllim işlədiyim vaxt "British Councel" və "Amerikan Councel"ın tədbirlərində çox iştirak edirdim. Amerikaya ilk dəfə müəllim kimi səyahət etmişəm.

ACCELSin TEA proqramı ilə gəlmişəm. Burda 2.5 aylıq müəllimlik kursunda iştirak etmişəm. Amerika barədə təəssüratım o qədər yüksək oldu ki, qərar verdim bura bir daha gəlim və öz üzərimdə daha çox işləyim. Qərarım bu oldu ki, öz öyrəndiyim məlumatı və bilikləri Azərbaycandakı digər insanlarla paylaşmalıyam. Bundan sonra mən Amerikaya müxtəlif mübadilə proqramları ilə daha 4 dəfə səyahət etdim. Sonra geri qayıtdım. Ən son iştirak etdiyim mübadilə proqramı 2000-ci ildə olub. Mən burda master proqramı ilə, media üzrə oxudum.

***- Bəs müəllimlikdən mediaya keçid necə oldu?***

- Lənkəranda müəllim kimi çalışanda düşünürdüm ki, müəllimlik çərçivəsindən kənara çıxmaq lazımdır. O baxımdan, beynəlxalq layihələrə müraciət edirdim. İREX proqramında işə götürüldüm. Sonra orda çoxlu sayda regional layihələri uğurla yerinə yetirdiyim üçün məni baş ofisə çalışmağa dəvət etdilər. Demək olar ki, mənim bu həyata çıxışım ordan başlayıb. Orda işlədikdən sonra mənim layihələrim daha çox media ilə bağlı oldu. Mən media ilə işlər görməyə başladım və sosial mediaya marağım ordan artdı. O vaxtdan facebooka olan sevgim də yarandı. Orda çalışarkən düşündüm ki, mən media sahəsində işləsəm də, media üzrə, xüsusən sosial media üzrə təhsilim olmadığı üçün bu, mənim işlərimi axsadır. Düşündüm ki, Amerika sosial medianın özəyi olduğuna görə bu sahədə təhsil alım. 2010-cu ildə EDMUND MUSKIE Mubadilə Proqramı ilə New Media/Yeni Media ixtisası üzrə təhsil almışam.

***- Sosial mediaya olan marağınız və ardınca dünyanın bir nömrəli sosial şəbəkəsinə düşən yolunuz... Ondan danışaq mümkünsə.***

- Burda universitetdə oxuyanda mən tezisimi sosial media üzrə yazmışdım. Araşdırdıqca faceboka olan marağım daha da böyüyürdü. Universiteti bitirdiyim il iş üçün facebooka müraciət etdim. Amma mən indi anlayıram ki, o vaxt mənim sosial media üzrə təcrübəm yetərli olmadığına görə müraciətim qəbul olunmadı. İndi təhlil edirəm ki, əgər 5 il öncəki rezümemlə indikini müqayisə etsəm, fərq çox böyükdür. Qəbul olunmamağımı da müsbət qarşılayıram. Nə yaxşı ki, həmin vaxt qəbul olunmayıb. İndi daha təcrübəliyəm və mənzərəni daha rahat görürəm. Bəli, alınmadı və mən öz təcrübəmi 3 ay boyunca media şirkətində davam etdirdim. Ondan sonra ailə ilə bağlı müvəqqəti olaraq müəyyən işlərdən uzaqlaşdım. Sonra ailə biznesimizi qurmağı düşündük. Mənim marketinqə marağım böyük olduğu üçün həyat yoldaşımın şirkətinin reklam olunması və marketinqini özüm evdən yerinə yetirirdim. Amma sonradan düşündüm ki, evdən çalışmaq heç bir karyera inkişafına kömək etmir. Mən artıq digər şirkətlər üçün çalışmalıyam ki, öz üzərimdə işləyim və irəliləyim. Mən başladım iş axtarmağa. Bir kampaniyada işə düzəldim. Amma gördüm ki, orda gördüyüm iş mənim ixtisasıma uyğun deyil. Başladım yeni axtarışlar etməyə. Rezümemi təqdim etdim bir neçə yerə. Sonra mənə zəng gəldi. Dedilər ki, biz sizin rezümenizi görmüşük, instaqramda kontraktor işi var, sizinlə bu haqda danışmaq istəyirik. Bu, təbii ki, mənim üçün inanılmaz oldu. Düşündüm ki, illər öncəki xəyallarım baş tutur. Üstəlik, mən özüm baş vurmamışam, onlar mənə müraciət ediblər. Həmin ayın həyəcanını sizə izah edə bilmərəm (gülür). Çox həyəcanlı oldu hər şey. İntervü prosesi, təklif, iş görüşməsi... İndi də danışdıqca həyəcanlanıram. Orda mənə kontraktor işi təklif etdilər və mən hazırda orda kontraktor vəzifəsindəyəm.

***- Necədi burdakı işiniz? Nəylə məşğul olursuz? Gününüz necə keçir?***

- Hazırda mənim iş mühitim arzuladığım iş mühitidir. Burda hər kəs bir-birinə hörmətlə yanaşır. Bundan artıq detallara girə bilməyəcəm. Çünki bizim iş müqaviləmizdə mediaya daxili iş qaydaları, iş mühiti ilə bağlı açıqlama verməmək tapşırılıb.

***- Bildiyim qədər həyat yoldaşınız da facebookda çalışır. Bir təsadüf, ya...?***

- Mən instaqramın bir layihəsində çalışıram. Həyat yoldaşım isə kontraktor olaraq facebookun bir layihəsində çalışır. İlk başda mən instaqramda çalışdım. Məndən sonra isə yoldaşım facebookda işə başladı. O da facebookda iş fürsəti olduğu üçün bunu dəyərləndirdi. Facebook ümumi şəbəkə olsa da, instaqram onun daxilində bir layihə kimi fəaliyyət göstərsə də, eyni şirkət daxilində çalışsaq da, işdə bir-birimizi görmürük. İş cədvəlimiz bir-birinə uyğun deyil (gülür). Onun işlədiyi saatlar mən işləmirəm. Mənim işlədiyim saatlar isə o çalışmır. Orada iş etikası o qədər yüksəkdir ki, biz bir-birimizin işinə müdaxilə etmirik, sorğu-suala girmirik. Çünki onun işinin ayrı layihə strukturu var, mənim işimin ayrı layihə strukturu. Biznes etikası orda yüksək səviyyədə gözlənilir.

***- İnsana inandırıcı gəlmir ki, Azərbaycandan, onun bir rayonundan, Lənkərandan bir nəfər müəllimə əzm edir və böyük bir şirkətdə işləməyi bacarır. Bunun üçün əsas olan şansdırmı? Yoxsa başqa detallar və ip ucları var?***

- Gözəl sualdır. İlk gələndə bu sual barədə çox düşünmüşdüm. Hətta yeni ana olduğum vaxtlarda kənardan iş qadınlarını görəndə bu, mənə əlçatmaz kimi görünürdü. Necə etmək olar ki, yüksək səviyyəli bir şirkətdə işləyəsən, ya da müstəqil şəkildə iş qurasan? Kənardan müşahidə aparmağa başladım bir neçə insanı. Onların həyat tərzini, işini araşdırdım. Anladım ki, Amerikada öz üzərində çalışdıqca, yaxşı şəbəkə qurduqca bu, sənin xəyallarını reallaşdırmağa 70 faiz kömək edir. Digər 30 faiz nədir? Təslim olmamalısan, daim öz xəyallarının arxasınca getməlisən. Amerikanı digər ölkələrdən fərqləndirən ən üstün cəhət odur ki, bura imkanlar yaradan ölkədir. Əgər insanlar hər hansı məqsədi qarşısına qoyursa, daim öz üzərində çalışırsa, buna nail olur. Bu, bəzən 5 il vaxt aparır, bəzən daha çox. Amma bu müddət ərzində təslim olmamaq lazımdır. Ən önəmlisi odur ki, sənin sferanda çalışan insanlarla biliyini genişləndirə bilərsən. Onlar sənə məqsədə çatmaq üçün daha praktik və qısa yolu göstərə bilər, təcrübələrini paylaşarlar. Fürsətdən istifadə edib deyim ki, biz özümüz burda olanda ailə biznesi yaratdıq. Həmin vaxt mən burda miqrant olaraq biznes qurmağın necə çətin olduğunu gördüm. Xüsusən də miqrant qadınlar üçün çətinlikləri hiss etdim. Hazırda mən bununla bağlı miqrant qadınlara yardım etmək məqsədilə bir şəbəkə qurmağa çalışıram. Bu şəbəkə vasitəsilə miqrant qadının Amerikada özünü necə inkişaf etdirəcəyi, qısa yollardan keçərək, uğura imza atmasının mümkünlüyü təbliğ olunacaq.

***- Yaxın gələcək üçün planlarınız necədir? Hazırkı iş yerində qalıb davam etmək, yaxud daha yüksək pillələrlə irəliyə doğru?***

- Mən hazırda işimi həddən artıq sevirəm. Burada “happy friday” (xoşbəxt cümə) anlayışı var, iş həftəsi bitəndə insanlar sevinirlər. Amma məndə “happy Monday” (xoşbəxt bazar ertəsi) üstündür. Çünki bilirəm ki, bazar ertəsi gələndə mən işə gedib xoşbəxt olacam. Çox sevirəm ki, bazar ertəsi oldu. İnstaqram layihələrində işimi davam etdirməyi düşünürəm. Bununla paralel, miqrant qadınların biznesi ilə bağlı layihəmə fokus olmuşam. İstəyirəm ki, şəbəkəm genişlənsin və digər qadınlara faydalı olan məlumatlarımı paylaşa bilim.








❑ **Sevinc TELMANQIZI**
**San Fransisko, Amerika**

YENİ MÜSAVAT
Son səhifə
N 59 (6673) 17 mart 2017



## Roman oxuya bilirsizsə.... çox anlayışlısız

Amerika mətbuatı professor Matthijs Balın roman mütaliəsi ilə bağlı fikirlərinə geniş yer verib. Həmin fikirlərə görə, insanın oxuduğu romanların sayı artıdqca çevrəsindəki insanları daha yaxşı anlamasına səbəb olur. Professor tələbələrin də iştirakı ilə iki təcrübə aparıb. İlk təcrübə zamanı M.Ball 36 tələbəsinə Yaponiyadakı nüvə fəlakətləri və Liviyadakı aksiyalarla bağlı qəzet xəbərlərini oxumağı tapşırıb. İkinci təcrübədə isə 50 tələbə Coze Saramaqonun “Korluq” adlı romanını oxuyub. Professor öncə müəyyənləşdirib ki, tələbələr həqiqi qaynaqlar yerinə xəyal məhsulu olan romanlara daha çox maraq göstərir. Bundan başqa, onlar xəyal məhsulu olan xarakterlərlə özləri arasında bir bağ quraraq həqiqi hadisələrdən uzaqlaşmağı tərcih edirlər: “Roman oxuyarkən özümüzü itirdiyimiz an tamamilə başqa bir dünyaya keçirik. Romandakı qəhrəmanların hiss etdiklərini asanlıqla hiss edə bilir və sanki onun düşüncələri bizim düşüncələrimizmiş kimi davrana bilirik. Bunun sayəsində həqiqi həyatda qarşımıza çıxan insanların fərqli fikirlərini və problemlərini daha yaxşı qəbul edə bilirik”.

# Kenquru səhər yeməyi üçün kafeyə girdi

Avstraliyanın Melburne şəhərində yerləşən bir kafeyə səhər saatlarında kenquru daxil olub. Hələ müştərilərin ayaq açmadığı bir saatda kafeyə girən heyvan ədəb-ərkanla masalardan birində oturub. Səhər yeməyi masası ətrafında oturan kafe işçiləri isə dərhal heyvanları müdafiə təşkilatına zəng ediblər. “Helping Hands Animal Rescue” təşkilatı hadisə yerinə gələrək, heyvanın restorandan çıxmasına yardım ediblər. Kenqurunun tutulması, maşına aparılması isə heç də asan başa gəlməyib. Baş verənlərin videoyazısı kafenin facebook səhifəsində yer alıb və onu 16 min nəfərdən çox adam izləyib. Kafe rəhbərliyi videonu bu adla paylaşıb: “Kenquru bizimlə səhər yeməyi yemək istədi”...



Amma kenquru yaxalanan zaman yüngül xəsarət alıb. “Helping Hands Animal Rescue” könüllüləri onun kafedən çıxmasına və maşına minməsinə kömək ediblər, daha sonra isə azadlığa buraxıblar.

# Çaya insan hüquqları verildi

Yeni Zelandiyadakı Uonqanui çayı ölkədə həcminə görə üçüncü çaydır və dünyada insanlara verilən hüquqları qazanan ilk çaydır. Bu barədə lenta.ru saytı “The Guardian”a istinadən xəbər verir. Ölkə parlamenti ilə bu barədə danışıqlar aparan Cerrard Albert bildirib ki, onlar bu çayı öz əcdadları hesab etdikləri üçün onun hüquqlarının əldə edilməsi üçün əllərindən gələni ediblər. Bu haqda qanun 15 martda qüvvəyə minib. Çayın yeni statusuna əsasən, ona dəyən hər hansı zərər cinayət məsuliyyəti sayılır. Bundan başqa, çaya iki mühafizəçi də təyin edilib. Xəbərdə həmçinin qeyd olunur ki, bununla bağlı iş Yeni Zelandiyanın tarixindəki ən uzun məhkəmə prosesi olub. Qəzet yazır ki, yüzlərlə yerli sakin qərardan xəbər tutan kimi ağlayıblar. Çünki çayı canlı varlıq kimi təsdiqlətdirmək görünməmiş hadisə sayılırdı. Çayın renovasiya prosesi üçün hökumət büdcəsən 80 milyon dollar vəsait ayırıb. Çayın hüquqi bazasının yaradılması üçünsə 1 milyon dollar lazımdır.





## Nişanlısına ev yerinə daş hədiyyə etdi

Urumçi şəhər sakini öz nişanlısına ev almaq yerinə çəkisi 33 ton olan daş hədiyyə edib. Həmin daşın hazırlanması, daşınması isə 160 min dollara başa gəlib. Bu barədə lenta.ru saytı Shanghaiist internet portalına istinadən xəbər yayıb. Lyu Fey adlı kişi öz sevgilisi Van Fanfana evlilik təklifi edib. Ona vəd etdiyi evi almaq yerinə isə meteorit adı ilə satın aldığı daşı verib. O, daşın üzərinə çiçək ləçəklərindən hazırlanmış ürək şəkli düzüb. Eyni zamanda hədiyyəni qırmızı parçaya büküb. Düzdür, gənc qız evlənmə təklifinə müsbət cavab verib. Amma bu hədiyyədən təsirlənmədiyini də nümayiş etdirib. Lyu nişanlısından meteoriti görmək istəyib-istəmədiyini soruşanda qız səmimi şəkildə deyib ki, əslində ərə getməyi çox da istəmir, amma meteroriti görmək istəyər.




**QOÇ** - Ulduzların düzümü riskdən uzaq olmağı tövsiyə edir. Əks təqdirdə, cəhdləriniz boşa çıxacaq. Nahar ərəfəsində isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

**BUĞA** - Bir qədər mistik anlamlı təqvim olduğunu nəzərə alın. Tanrıya zidd olan addımlardan yayının, yalnız savab işlər görün. Çalışın ki, dilinizdən yalnız xoş sözlər çıxsın, hamı sizi sevsin.

**ƏKİZLƏR** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**XƏRÇƏNG** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Pul məsələlərində isə ehtiyatlı olun.

**ŞİR** - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyət sahəsində xərcləyin. Münasibət qurmaq, hansısa qlobal problemi həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu ərəfə deyil. Yalan vədlər verməyin.

**QIZ** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Müştərək fəaliyyətdən uzaq olun.

**TƏRƏZİ** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

**ƏQRƏB** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**OXATAN** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün yaşlı xəstə və ya qohumlarınıza mütləq baş çəkin ki, savablarınız artsın.

**OĞLAQ** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şans qazanacaqsınız.

**SUTÖKƏN** - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var. Tədbirli olun.

**BALIQLAR** - O qədər də uğurlu gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# İsveçrəli maşın nömrəsinə 158 min dollar ödədi




İsveçrə sakini auksiondakı maşın nömrəsi üçün 158 min dollar ödəyib. Ölkənin Vale kantonunda keçirilən auksion barədə lenta.ru saytı yazıb. Xəbərdə qeyd olunub ki, bu, İsveçrədə bu günə qədər maşın nömrəsinin ən baha satıldığı haldır. Nömrə hərraca 15 fevralda qoyulub, tam bir ay sonra qalib ortaya çıxıb. Nömrənin işarəsi VS1 hərflərindən ibarətdir. Bu isə Vale bölgəsini adından götürülüb. Nömrənin unikallığı isə onun üzərindəki 1 rəqəmindədir. Bu nömrə uğrunda 17 nəfər mübarizə aparıb. Alıcının adı isə hələ açıqlanmır. Anonim qalib özündən əvvəlki rekordu təzələyib. Çünki daha öncə Sank Qallen kantonunda 133 min dollara SG1 nömrəsini alan başqa bir isveçrəli də olub.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Nazim SABİROĞLU
“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.100